
MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

ALMAS İLDIRIM

Seçilmiş əsərləri





ALMAS İLDIRIM

SEÇİLMİŞ ƏSƏRLƏRİ

“ÖNDƏR NƏŞRİYYAT”
BAKI–2004

*Bu kitab "**Almas Yıldırım.** Qara dastan. Şe'rlər və poemalar" (Bakı, "Azərbaycan" nəşriyyatı, 1994) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Toplayanı, tərtib edəni
və ön sözün müəllifi: **Maarif Teymur**

Redaktoru: **Nikpur Cabbarlı**

894.361'1 – dc 21
AZE

Almas İldırım. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyat", 2004, 160 səh.

Almas İldırımın seçilmiş əsərlərindən ibarət olan bu kitabına müəllifin milli istiqlal, azadlıq, müstəqillik uğrunda mübarizəyə həsr olunmuş şeirləri toplanmışdır.

Şeirlərdə Vətən həsrəti, tarixi keçmişimizlə bağlı poetik düşüncələr öz parlaq əksini tapmışdır.

ISBN 9952-416-03-1

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ALMAS İLDIRIMIN
HƏYATI, MÜHİTİ, ŞƏXSİYYƏTİ

Azərbaycan ədəbiyyatı tarixinə Almas İldırım kimi daxil olmuş şairin əsil adı Əbdülhəsəndir. Lakin uşaqlıqdan onu babasının adı ilə Almas çağırarmışlar. Şeirlərini Almas İldırım imzasıyla dərc etdirdiyindən bu adla da tanınmış və məşhurlaşmışdır.

Almas İldırım 1907-ci il mart ayının 24-də Bakı yaxınlığındakı Qala kəndində anadan olmuşdur. Əkinçi olan atası Hacı Əbdülməhəmməd kişinin Qala kəndində kiçik torpaq sahəsi, ləpədöyəndə isə bir-iki balıqçı qayığı vardı ki, bunlardan əldə etdiyi qazancla ailəsinin dolanacağını, çətinliklə də olsa, təmin edə bilirdi. Anası Nisə xanım evdarlıqla məşğul olmuş, uşaqlarını həmin qazancla böyüdürdü. 1913-cü ildə Almas altı yaşında ikən ailələri Şüvəlana, 1920-ci ildə isə Çəmbərəkəndə köçür. Kiçik Almas 1914-1915-ci tədris ilindən başlayaraq, Cənubi Azərbaycandan Bakı Neft mədənlərində işləməyə gəlmiş fəhlələrin uşaqları üçün İran hökuməti tərəfindən açılmış "İttihad" məktəbində təhsil almağa başlayır. Bu məktəbdə dərslər Azərbaycan dilində tədris edilirdi, eyni zamanda fars dili fənninə də geniş yer verilirdi. Odur ki, A.İldırım "İttihad" məktəbini bitirərkən fars dilində mükəmməl yazı və danışıq təcrübəsi qazanmışdı.

1925-ci ildə "İttihad" məktəbini bitirən on səkkiz yaşlı Almas təhsilini Abdulla Şaiqin nümunə məktəbində davam etdirməyə başlayır. Bu məktəbdə dərs deyən A.Şaiq, S.Hüseyn, Q.Əfəndiyev (Qantəmir) kimi görkəmli ziyalılarla ünsiyyət, gənc Almasın intellektual inkişafında, bədii yaradıcılıq istedadının parlamasında önəmli rol oynayır. A.Şaiqin nümunə məktəbində Almas İldırımla birgə oxumuş və dostluq etmiş buzovnalı Abbasqulu Əlihüseyn oğlu Abdullayev (Nafi) (1905-1993) xatirələrində göstərir ki, tələbələrimiz arasındakı dostluq, səmimiyyət və mehribanlıqdan bəhs etmək lazım gəlsə, Almas İldırımın adı xüsusi qeyd olunmalıdır. O, ağır təbiətli, təvazökar bir şəxsiyyət idi. Müəllimlərindən S.Hüseyn və A.Şaiqlə daha çox ünsiyyətdə olardı.

Təbii ki, A.İldırımın məktəb müəllimlərindən bu iki tanınmış yazıçı ilə daha çox ünsiyyətdə olması özünün də ədəbi fəaliyyətə baş-

laması ilə əlaqədar idi. Gənc A.İldırım "İttihad" məktəbinin son siniflərində artıq şier yazır və hələ o zaman ciddi mövzular seçə bilir və bu mövzuların bədii ifadəsində şerin texnikasına yaxşı bələd olduğunu nümayiş etdirirdi.

A.Şaiqin nümunə məktəbində oxuduğu illərdə A.İldırım H.Cavid, Ə.Cavad, C.Cabbarlı kimi görkəmli ədiblərlə də tanış olur, onların əsərlərini mütaliə edir. Bu sənətkarlar içərisində gənc Almasın ruhunu ən çox oxşayan və ona yaxın olanı Əhməd Cavad idi. Ə.Cavadın incə ruhu, həssas qəlbi, alicənab davranışı gənc şairin diqqətini daha çox cəlb edirdi. Elə buna görə də özündə şairlik yanğısı hiss etdiyi gündən Ə.Cavadı özünə ustad bilmişdi. Əslində o illərdə təkcə A.İldırım deyil, bütün milliyyətçi Azərbaycan gəncliyi "Göy göl" müəllifinə heyran idi.

Ə.Cavad o zaman yenicə təşkil olunmuş "Ədəbiyyat cəmiyyəti"nin məsul katibi idi. Azərbaycan ədəbiyyatının yeni quruluşun tələblərinə uyğun inkişafını təmin etməyi qarşısına başlıca məqsəd qoyan bu cəmiyyətin əsas fəaliyyət istiqamətlərindən biri də gənc ədəbi qüvvələrə kömək etmək idi. Cəmiyyətin fəaliyyətində tanınmış sənətkarlarla yanaşı, gənc şair və yazıçılar da yaxından iştirak edir, yeni əsərlərini oxuyur, müzakirələrdə çıxış edirdilər. Gənc A.İldırımın Ə.Cavad sənətinə və şəxsiyyətinə böyük rəğbət və məhəbbəti onu bu cəmiyyətin sıralarına gətirir.

1926-cı ildə "Ədəbiyyat cəmiyyəti" fəaliyyətini dayandırır. Buna səbəb, cəmiyyətdə yeni quruluşla ayaqlaşa bilməyən (əslində bunu heç arzulamayan) C.Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov və s. "qocaman" yazıçıların nüfuzunun artması idi. "Ədəbiyyat cəmiyyəti" öz işini "Qızıl qələmlər ittifaqı"na təhvil verir. "Ədəbiyyat cəmiyyəti"ndə açıq-saçıq milli fikirli gənc şair A.İldırım yeni quruluşun (sovet quruluşunun) "ayıq-sayıq" keşikçilərini dərhal duyuq salır. Az sonra Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin sədri Mustafa Quliyev yazırdı: "Yazıçılar arasında musavatçılara aşiq və Türkiyə çavuşlarının həqiqi şagirdi bulunan Almas İldırım yer almış olduğu meydana çıxmaqdadır. Bunlar Əhməd Cavad və Hüseyn Cavidlərin yolçusudurlar. Milli ədəbiyyat yaratmaq məqsədilə qəmli mərsiyələr yazan bu kimi gənc şairlərdən ədəbiyyatımızı təmizləməliyik".

Bu "təmizlik", yuxarıda qeyd etdiyimiz kimi, məhz 1926-cı ildə fəaliyyətə başlayan "Qızıl qələmlər ittifaqı"nın bünövrəsi qoyulur. A.İldırım ədəbi fəaliyyətini bu ittifaqın üzvü kimi də davam etdirməyə

başlayır. 1926-cı ildə həmin ittifaqın nəşr etdirdiyi "Gənc qızıl qələmlər" məcmuəsində onun altı şeri ("Hindli qız", "Şərqə", "Yarın", "Ey Hindistan", "Nəriman", "Qərbə") dərc edilir.

1927-ci ildə indiki Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olan A.İldırım az sonra bu təhsil ocağından xaric olunur. Səbəb kimi guya onun tacir ailəsinin övladı olması göstərilir. Əslində isə, Almasın atası Əbdülməhəmməd kişi Çəmbərəkənddə xırda alışverişlə məşğul olurdu ki, bundan da əldə olunan qazanc onun ailəsinin ən zəruri ehtiyaclarını zorla ödəyirdi.

A.İldırımın universitetdən xaric olunduğu dövr artıq milli düşüncəli ziyalıların təqiblərinin gücləndiyi, milli mənlik şüurunun izləndiyi illər idi. Bolşevik rejiminin özünə düşmən saydığı sosial zümrələri – tacirləri, sənayeçiləri, keçmiş dövlət məmurlarını, milli ordu zabitlərini, kənd mülkədarlarını, habelə onların ailə üzvlərini izləməyə, birinci məqamdaca məhv etməyə başlamışdı.

Yenicə müstəqil həyata qədəm qoyan, elm, təhsil təşnəli A.İldırım, universitetdən xaric edilməsindən həddən ziyadə mütəəssir olur, bir müddət güclü ruh düşkünlüyü vəziyyətində yaşayır. Bir qədər qəddini düzəltdikdən sonra ədəbi istedadını, bilik və bacarığını gerçəkləşdirmək üçün münasib mühit axtarmağa başlayır. Adını "etibarsız adamlar" siyahısından sildirmək üçün, könülsüz də olsa yeni həyatı tərənnüm edən şeirlər yazmağa başlayır. Yenə də daxili yanğısını büruzə verməkdən şərə həsr olunmuş yığıncaqlarda, müzakirələrdə çıxış edirdi.

Bu ovqat A.İldırımı 1928-ci ildə yeni təsis olunmuş Azərbaycan Proletar Yazıçıları cəmiyyətinə gətirib çıxarır. Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi Əbdülvahab Yurdsevər (1898-1976) Proletar Yazıçıları Cəmiyyətinin mahiyyətini belə açıqlayır: "Kommunist Partiyası tərəfindən qurulan bu cəmiyyətin qayəsi - sovet rejiminə kor-koranə xidmət edəcək, sözdə "ədiblər" yetişdirməkdi. Kommunist sıralarında qüvvətli və istedadlı sənət ərbabı pək bulunmadığı üçün bu kimilər əksərən partiyasızlar arasında aranmaqdadır. Bu məqsədlə, əsil kommunist ədiblərin yanı-başında bir də "cığırdaş" yazarlar zümrəsi ihdas edilmişdir. Cığırdaş yazar, kommunist görüşünə görə, sovet rejiminə prinsip etibarilə müxalif olmayıb onunla ədəbi sahədə işbirliyi yapmağa amadə bulunan qələm sahibi deməkdir.

Böylə bir partiyasız ədəbi zümrənin ihdası həm kommunistlərin, həm də milliyyətçilərin işinə gəliyordu. Kommunistlər bu sürətlə qu-

rulan müştərək çalışma mühitində bəzi istedadlı gəncləri partiya lehinə qazana biləcəklərinə ümid edirdilər. Milliyyətçi şairlər isə başqa heç bir aləmi çalışma sahəsi bulamadıqları üçün bu cəmiyyətə girmək surətiylə fikirlərini bir parça yürütmək və şeirlərini xalqa duyurmaq fürsətini əldə edə biləcəklərini uluyarlardı. Böyləcə, cəmiyyət içində iki müxtəlif və hətta bir-birinə düşmən zümrə qarşı-qarşıya gəlmiş olurdu".

Almas İldırım da məhz "cığırdaş" yazarlardan sayılırdı. Akademik Bəkir Nəbiyevin belə bir mülahizəsi ilə biz də tamamilə razıyıq ki, "20 yaşı təzə tamam olan bir gənc istedadın C.Məmmədquluzadə, H.Cavid, A.Şaiq kimi "qocaman", "köhnə" sənətkarlarla birlikdə "cığırdaş" kateqoriyasına salınması bir tərəfdən onun ictimai mənşəyi ilə ("tacir oğlu") əlaqədar idisə, o biri tərəfdən A.İldırımın İstanbulda çap olunmuş şeirlərinin hələ də unudulmaması ilə bağlı idi". Burada izahat üçün qeyd edək ki, 1926-cı ildə İstanbulda çıxan "Həyat" dərgisində A.İldırımın "A dağlar", "Sevdiyim" və s. şeirləri çap olunmuşdu.

Gənc şairin "cığırdaş"lar siyahısına salınmasının digər bir səbəbi isə müxtəlif ədəbi-mədəni tədbirlərdə, yığıncaqlarda dövrün, cəmiyyətdəki hakim ideologiyanın tələblərinə uyğun gəlməyən çıxışlar etməsi idi.

Almas İldırımın Azərbaycan Proletar Yazıçıları Cəmiyyətindəki fəaliyyəti barədə o zamanın dövri mətbuatında məlumat çox azdır. Artıq şəxsiyyət kimi kəskin, milli və dünyəvi mövzularda yazan A.İldırımı açıqcasına təqib edilir, düşüncələrini zorla "sovet ideologiyası" baxımından günahlandırırdılar. Həm də A.İldırım gənc, yeniyetmə olsa da, Azərbaycan Xalq Cümhuriyyətinin yaranışını duymuş və onun süqutunun acısını ömrü boyu unutmamışdı.

S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə olunan sənəd və materiallarda da A.İldırımın həmin cəmiyyətdəki fəaliyyətinə dair əhəmiyyətli mənbələrə rast gəlmədik. Yalnız 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində respublika mətbuatında dərc olunmuş bəzi yazılarda 1920-1930-cu illərin ədəbi-mədəni mühiti, həmçinin Azərbaycan Proletar Yazıçıları Cəmiyyətindəki ab-havanın həqiqi mənzərəsini canlandırmağa yönəldilmiş cəhdlərin şahidi oluruq. Bu baxımdan vaxtilə həmin cəmiyyətin rəhbərlərindən olmuş (məsul katib) xalq şairi Süleyman Rüstəmin "Ədəbiyyat və incəsənət" qəzetinin 22 yanvar

1988-ci il tarixli sayında "Zamanın əsas meyarı" sərlövhəsi altında dərc olunmuş xatirə-müsahibəsində verilmiş fikirlər maraq doğurur. S.Rüstəm bu müsahibəsində Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin bir çox gənc üzvlərinin əhval-ruhiyyəsi haqqında məlumat verməklə yanaşı, dostu A.İldırımın da bu cəmiyyətdəki mövqeyindən söhbət açır: "Biz, Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin gənc üzvləri istəyirdi ki, hamı bizim kimi yazsın, bizim kimi düşünsün, inqilabı təlimi qavrasın… Biz yaşlı nəsil o zaman gənc sənətkarların yaradıcılığını bəzən düzgün qiymətləndirmirdik. Zaman qarışıq idi. Bəziləri gizli fəaliyyət göstərən Müsavat Partiyasının təsiri altına düşdü. Bəziləri isə haqsız tənqidlərə davam gətirmədi. Bunun nəticəsində bir neçə şair ölkəmizi tərk etdi. Onların heç biri, o dövrün tələbi ilə desək, nə burjua yazıçısı idi, nə də bəy-xan övladları. Aralarında A.İldırım kimi çox güclü və istedadlı şairlər də vardı…".

Azərbaycan Respublikasının əməkdar müəllimi, vaxt ilə Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin üzvü olmuş Humay Həsənzadənin (qeyd edək ki, Humay xanım həmin cəmiyyətə qəbul edilən ilk şairə qız idi – *M.T.*) hazırda S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunan xatirələri də, A.İldırımın şəxsiyyəti, xarakteri haqqında mövcud təsəvvürümüzü bir qədər də dolğunlaşdırır. Humay xanımın şəhadətinə görə, A.İldırım orta boylu, sadə və səliqəli geyinən, asta yerişli bir gənc imiş. Bakıda o zamanlar çox populyar olan M.Ə.Sabir adına kitabxanada "Kitab dostları" cəmiyyətinin təşkil etdiyi yığıncaqlarda iştirak edər, şeirlərini oxuyarmış. Rəsmi ideologiya ilə üst-üstə düşməyən bir sıra çıxışlarına görə, A.İldırım "xırda burjua yazıçısı" kimi, heç də xeyirli aqibət vəd etməyən bir damğa da qazanmış imiş.

Təbii ki, belə bir dağma sahibi olan gənc şairin təqiblərə məruz qalması labüd idi. Hətta yeni ictimai-siyasi münasibətləri tərənnüm edən "Hindli qızı", "Şərqə", "Yarın", "Qərbə", "Krımda axşamlar" kimi şeirlər yazıb çap etdirməsi də onu bu təqiblərdən qoruya bilmir. Baş Siyasi İdarə (QPU) şairi nəzarətə götürür və hər addımını izləməyə başlayır. İstanbulda "Həyat" dərgisində çap olunmuş "A dağlar" şeri Proletar Yazıçıları Cəmiyyətində, daha sonra isə "Gənc qızıl qələmlər ittifaqı"nda müzakirə edilir. Proletar Yazıçıları Cəmiyyətinin sədri, o dövrün nüfuzlu tənqidçilərindən sayılan Əkbər Ruhi, Mustafa Quliyev A.İldırımı "milli ədəbiyyat pərdəsi" altında mərsiyələr, sevgi

qəzəlləri yazmaqda ittiham edir, onu "müsavatçıların aşiqi", "Türkiyə qovuşlarının həqiqi şagirdi" adlandırır, "artıq buna meydan verməyəcəyik" kimi hədələrlə şairi addım-addım izləyirdilər. Qəlbi, ürəyi, Vətən eşqi ilə döyünən A.İldırımı "əgər keçmişdən vaz keçərsə, sadəcə sözdə deyil, işdə də bizimlə olarsa, başqa məsələ, yoxsa bizim hücumlarımıza sinə gərməlidir" kimi fikirlə bolşevik mətbuatında çıxış edirlər. Hətta 1930-cu illərin əvvəllərindən, Aşqabadda çıxan "Zəhmət" qəzetində (1932-ci il, 10 avqust) oxuyuruq: "Almas İldırım ideolojimiz (sovet ideologiyası – *M.T.*) üçün zərərli bir insandır. Bizə inanmaq şərtiylə aramızda qalmaq diləyində isə, bu arzusunu mətbuat vasitəsi ilə bildirməlidir". Onu Əhməd Cavad və Hüseyn Cavid kimi şairlərin yolunu davam etdirməkdə günahlandırır, bu kimi yazarlardan proletar ədəbiyyatını təmizləmək lüzumunu kəskin şəkildə qeyd edirdilər. Vulqar sosioloji tənqidin nümayəndələrindən olan Əsəd Əyyubi isə bütün əxlaqi normaları unudaraq yazırdı ki, "Almas kimilərin başları sovet çəkici ilə əzilməlidir".

Beləliklə, "həyat meydanına partlayışlı günlərdə atılan və sovet istilasından qaçaraq", A.İldırım bir şəxsiyyət kimi Vətənə bağlılıq hissini şəxsiyyəti ilə birləşdirir. Amansız təqiblərə məruz qalan şair Azərbaycan Proletar Yazıçıları Cəmiyyətindən xaric olunur və Dağıstana sürgün edilir. A.İldırımın Dağıstanda keçən iki illik sürgün həyatı burada ədəbi mühitin qaynar dövrünə təsadüf edir. Şair bir tərəfdən pedaqoji fəaliyyət göstərir, eyni zamanda "Dağıstan füqərası" qəzetində yeni şeirlərini dərc etdirir. Bu şeirlər Dağıstanda yaşayan azərbaycanlılar, ləzgilər, çeçenlər və başqa xalqların nümayəndələri içərisində geniş yayılır, sevilə-sevilə oxunur.

Sürgün dövründə A.İldırım həmçinin Dağıstan Proletar Yazıçıları Cəmiyyətinin təşkilatlanmasında, bu cəmiyyətin Dərbənd özəyinin yaradılmasında yaxından iştirak edir, müzakirələrdə fəallıq göstərir, yeni şeirlərini oxuyur. Az bir zamanda gənc şair Dağıstan ziyalıları, tələbə, gənclər və zəhmətkeş xalq içərisində böyük nüfuz qazanır. Təbii ki, bu hal Dağıstanda sürgün həyatı yaşayan A.İldırımın hər bir addımını izləyən siyasi idarə əməkdaşlarını narahat etməyə bilməzdi. Onlar A.İldırımın bundan sonra da Dağıstanda qalmasını milliyyətçilik, istiqlal ideyalarının daha da qüvvətlənməsinin təkanverici amili kimi qiymətləndirir və bu mövcud siyasi rejim üçün böyük təhlükə sayırdılar. Şairin Dağıstandakı ədəbi, pedaqoji, ictimai fəaliyyətinin mil-

liyyətçi, istiqlalçı fikirlərinin geniş vüsəti Baş Siyasi İdarəni şairə qarşı yeni qəddar tədbirlər görməyə sövq edir. Onun 1930-cu ildə Bakıda Azərnəşr tərəfindən çap edilmiş "Dağlar səsləndirkən" kitabı sosializm quruluşunu, fəhlə-kəndli hökuməti əleyhinə təbliğat məqsədi güdən ziyanlı ədəbiyyat kimi qısa bir zamanda mağazalardan, kitabxanalardan yığışdırılır. 1930-cu ilin əvvəllərində isə A.İldırım Dağıstandan Türkmənistana sürgün edilir.

Dağıstanda başladığı pedaqoji fəaliyyətini şair Türkmənistanda da davam etdirir. Aşqabadda İrandan və Qafqazdan köçürülmüş türk ailələrinin uşaqları üçün təşkil edilmiş məktəbdə dərs deyir. Eyni zamanda türkmən ədibləri, alimləri, ziyalıları ilə sıx əlaqələr qurur. Yerli qəzetlərlə, Aşqabad radiosu ilə sıx əməkdaşlıq edir, qardaş türkmən xalqının həyatı ilə yaxından tanış olur və əlbəttə ki, şeir yaradıcılığını davam etdirir. O, burada jurnalistlik fəaliyyəti ilə intensiv məşğul olur, "Zəhmət" qəzetndə xeyli şeir və məqalələri dərc edilir.

1932-ci ilin əvvəlində şair Şamaxıdan ailəsi ilə birgə Türkmənistana sürgün edilmiş, əslən. Azərbaycanın cənubundan – Təbrirdən olan Zivər adlı bir qızla ailə həyatı qurur. Bu izdivacdan dünyaya gələn ilk oğluna şair Azər adını verir. Elə burada yeniyetmə, sürgün həyatı yaşayan, millilik ruhu ilə yoğrulmuş şair Almas İldırımın ilk övladına "Azər" adı verməsi M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" adlı əsərindəki aşağıdakı fikri bir daha yada salır: "O, pəri kimi bir oğul doğdu ki, çöhrəsi Azər heykəlinə bənzəyirdi". Buradan, bu adqoymadan aydın olur ki, Almas İldırım bir şəxsiyyət kimi dövrünün acısını, şirinini dadmış, özündən əvvəlki sənətkarların əsərlərini dərindən mütaliə etmiş, "bu qoca və sərt dünyanın adəti belədir ki, gah insanı yəhərin belində, gah da yəhəri insanın belində gəzdirir" kəlamı ilə barışmalı olmuşdur. Lakin tale Türkmənistanda da A.İldırımın üzünə gülmür. Onu burada da rahat buraxmırlar.

Şair daim təqib olunur, izlənilir və onun tutduğu millilik yolundan sapındırmağa çalışırlar. "Zəhmət" qəzetinin 27 aprel 1932-ci il tarixli sayında dərc olunmuş "Öz haqqımda" adlı məqaləsindən məlum olur ki, vətənində də şairin əleyhinə kompaniya davam etdirilir, ona müxtəlif damğalar vururdulur. Hətta şairin sürgündəki fəaliyyətinə nəzarət etmək üçün, Azərbaycan SSR Baş Siyasi İdarəsi xüsusi nümayəndəsini Aşqabada ezam edir. "Bu agent öz bədxah vəzifəsini iki istiqamətdə yerinə yetirirdi: bir tərəfdən şairin hər bir addımını izləyərək öz ida-

rəsi üçün donos hazırlayır, digər tərəfdən isə türkmənlər və respublikadakı azərbaycanlılar arasında onu gözdən salmaq üçün məqalələr yazıb nəşr edirdi". A.İldırım ya bolşevik rejiminin təklifini qəbul edib, həmin ideolojinin cəbhəsinə keçməli, ya da milli ideala sadiq qalaraq istiqlal mücadiləsini davam etdirməli idi.

Heysiyyətini, şərəf və ləyaqətini hər şeydən üstün tutan şair, təbii ki, ikinci yolu – mücadilə yolunu intixab edir. Artıq Türkmənistanda qalmaq özü və ailəsi üçün təhlükəli olduğundan mühacir həyatını, yəni xaricə getmək yolunu seçir. 1933-cü ilin iyununda həyat yoldaşı Zivər xanımı və üç aylıq körpə oğlu Azəri də götürüb, xəlvəti olaraq İrana doğru istiqamət alan qaçaqmalçı dəvə karvanına qatılır. Uzun yol qət edərək, qaçaqmalçılardan ayrılıb dağ və təpələrə, ayaqları daş və tikanlardan yaralı, özləri ac və susuz, üzülmüş halda İran sərhədinə yaxınlaşırlar. Sərhəd məntəqəsində Almas İldırımı dərhal həbs edir, 24 saat soyuq suda saxlayırlar. İran sərhədçiləri şairi bolşevik agenti zənn edərək, ona 25 gün müxtəlif işgəncələr verir, sinəsinə qədər soyuq suyun içərisində sual-cavaba tuturlar. Bütün bu işgəncələr A.İldırımın səhhətinə mənfi təsir göstərir və o, böyrək xəstəliyinə tutulur. Nəhayət, Tehran rəsmilərinin göstərişi ilə şair azad edilib, ailəsi ilə birlikdə Məşhədə göndərilir. Beləliklə, Almas İldırımın həyatının və ədəbi fəaliyyətinin mühacirət dövrü başlanır. Qeyd edək ki, mühacir şairimizin yaradıcılığında ideoloji-siyasi ruhla, kulturoloji, tarixi məzmun qovuşuğundan, onun şəxsiyyətinin öyrənilməsi təhlil metodundan irəli gəlir. Bu da heç də mühacir ədəbiyyatı yaradan şəxsiyyətin siyasətə tabe etdirilmiş "məni" deyil, milli ideologiya (Azərbaycanın istiqlalı, azadlığı və müstəqilliyi) uğrunda döyüşən yaradıcı şəxsiyyətini müəyyənləşdirən amildir. Məhz bu amilə xidmət edən şairin ruhunu oxşamayan İran həyatını Məşhəddə, Tehranda və Təbrizdə yoxsul keçirən görürük. Çəkdiyi bu iztirabları şeirlərinin birində belə ifadə edir:

Həsrət qalıb doğma yurdun nazlı, müşfiq qucağına,
Gözlər yaşlı, boyun bükük vətənsizmi öləcəyəm?
Göz dikərək yad ellərin şəfa verməz ocağına,
Böylə qərib bir parçacıq, kəfənsizmi öləcəyəm?

Şeir parçasından göründüyü kimi şair İranda, Cənubi Azərbaycanda belə özünü yad və kimsəsiz hiss edir, qəfəsdəki quş kimi çırpınır. Nəhayət, İranı da tərk etmək qərarına gəlir. Buna səbəb isə, qəddarlığı

və amansızlığı ilə Sovet İttifaqındakı bolşevik rejimindən heç nə ilə fərqlənməyən, İran şahlıq rejimi idi. A.İldırım o zaman türk dünyasının yeganə müstəqil və demokratik ölkəsi olan Türkiyə Cümhuriyyətinə pənah aparır.

1933-cü ildə Türkiyəyə gedən A.İldırım, bu ölkənin simasında özünə ikinci vətən tapır. Dili, dini, kültürü bir qardaş-bacılarına qovuşur. Şairin Vətən həsrətilə təşnə olan qəlbi, az da olsa, rahatlıq tapır. Burada mənzil və işlə təmin olunur, ailəsinin güzəranı müəyyən qədər yaxşılaşır. Eyni zamanda yorulmadan bədii yaradıcılıqla məşğul olur, şeirlər yazır. Türkiyədə yaşadığı təqribən 17 illik mühacirlik həyatı dövründə A.İldırımın "Çinaraltı", "Göyboru", "Boz qurd", "Orkun", "Özləyiş", "Kommunizmlə mücadilə" kimi türkçülük fikrini yayan məcmuələrdə, Van və Malatya əyalətlərində, həmçinin Berlində nəşr olunan "Qurtuluş" mühacirət dərgisində şeirləri yayımlanır. Azərbaycanın müstəqillik ideyası həsrətlə birləşərək, Almas İldırımın lirik şeirlərində qovuşur və onun şəxsiyyətinin tam açılması aydınlaşır. Milliyyətçiliyin həzm olunması ilə bağlı lirik fikirlər, A.İldırımı daha çox maraqlandırır və vətəni Azərbaycanın, SSRİ-dəki halı onu incidir. Mahiyyət etibarı ilə şair şəxsiyyəti, Vətən həsrəti ilə tam çulğaşır. 1936-cı ildə bütün bu fikirlər şerə çevrilərək, İstanbulda "Boğulmayan bir səs" adı ilə işıq üzü görür. Bu kitabdakı şeirlərlə şair mühacirlik həyatının ilk illərində qarşısındakı vəzifələrdən birini onda görür ki, Azərbaycan barədə Türkiyə ictimaiyyətində yaradılmış yalnış təəssüratı dağıtsın, əvəzində isə gerçəkliyi əks etdirən obyektiv rəy formalaşdırsın…

1936-cı ildə A.İldırımın əkiz oğlanları dünyaya gəlir. Şair oğlanlarından birinə Eldəgəz, digərinə Yurdavar adı qoyur. Akademik Bəkir Nəbiyevin qeyd etdiyi kimi, "ata öz övladlarına verdiyi bu nadir adlarla onlara özünün ən böyük tapşırığını təmin etmək istəmişdi: yəni onlar, övladları mütləq yurda, Vətənə varmalı, eldə, obada gəzməlidirlər!" Təəssüf ki, şairin bir çox arzuları kimi, bu arzusu da ürəyində qalır. Əkizlər ağır xəstələnir və bir gündə doğulduqları kimi, bir gündə də dünyalarını dəyişirlər. Bu faciədən dərin sarsıntı keçirən A.İldırım çəkdiyi iztirabları "Bir gündə ölən əkizlər" şerində belə ifadə edir:

Mən deyirdim ki, bir gün varıb ana yurduna,
Öpərsiniz anamın toz basan məzarını...
Özlədiyim o gündə mən ölmüş olsam, belə

Siz mənsiz gəzərsiniz Bakının Xəzərini...
Lənət olsun mənə yar olmayan bu fələyə,
Düşmən kəsildi məndə yaşayan hər diləyə.

1934-1935-ci illərdə A.İldırım pedaqoji fəaliyyətini mühacirətdə də davam etdirir. Bir müddət Polu ilqəsinin Qarağa bucağı ibtidai məktəblərində müəllimlik etmiş, 1936-cı ildən ömrünün sonuna qədər Şərqi Anadolunun müxtəlif əyalət şəhərlərində kargüzar, katib işləmişdir. O, 1936-cı ildə Elaziq İnsan məmurluğunda, 1937-1939-cu illərdə Kəbin və Polu təhqiqat katibliklərində, 1939-1951-ci illərdə isə Qarabəğan, Ağın, Xankəndi, Balı bəy və Muşan bucaq bələdiyyələrində, 1951-ci il iyul ayından dekabr ayınadək Tunğalinin İrəsi bucaq bələdiyyəsində çalışmışdır. Ölümündən bir ay əvvəl, 1951-ci ilin dekabrında isə şair Malatyanın Qala qəsəbə bələdiyyəsində işə keçirilmişdi. Elə bu vəzifədə işlədiyi zaman, 1952-ci il yanvarın 14-də, bazar ertəsi günü mühacir şair gözlərini əbədi olaraq yummuşdur. Bu barədə Türkiyədə çap edilən bir neçə qəzetdə o cümlədən "Azərbaycan" dərgisində bir səhifə məlumat verilmişdir.

A.İldırımın həyatı əziyyət və məşəqqətli olmuş, buna baxmayaraq, onun doğma Azərbaycana məhəbbəti sönməmiş və o, ana Vətəninin istiqbalına, müstəqilliyinə dərin bir ümid bəsləmişdir. Bu fikirləri o, özünün müəllimləri C.Cabbarlı, H.Cavid, Ə.Cavad kimi şəxsiyyətlərin yaradıcılığında da axtarmışdır. Əslində simvolizmə müraciət etdikdə də A.İldırım yaradıcılığının və şəxsiyyətinin mahiyyəti tam açılır. Məsələn, dağlara müraciəti, Amudərya ilə söhbəti, Xəzərin simvolu olan Gölcüklə dərdləşməsində rus-sovet senzurasından yaxasını qurtarmaq yox, onların məkrliyini, milli mənlik haqqında düşünənlərin başlarına açdıqları fəlakəti təsvir edir. Qafqaz dağlarına müraciəti bu fikrimizi tam aydınlaşdırır. Bütün bu fikirlərlə rus istilasını, tarixin dərin qatlarından analogiya tapmaqla simvollaşdıran şair Azərbaycanın yaralarına sanki məlhəm axtarır. Şair bu məlhəmi şeirlərində tapır və Vətənin müstəqil, azad, hürr yaşamasına bütün varlığı ilə inanır:

Sən aldırma içimdən yaralıyam, yaralı,
Burax keçsin gənc ömrüm fırtınalı, boralı.
Mən bilirəm, sonunda çıxmam üzü qaralı,
Yurdumun gənclərinə ümidim, imanım var.

Maarif Teymur



MƏNİM İNCİM

Nə İrandan, nə Hinddən, nə Əfqandan, nə Çindən,
Mən bir inci tapmışdım Qafqasların* içindən,
Oynadarkən, əlimdən düşdü torpağa incim,
Nerdə mənim gəncliyim, nerdə mənim sevincim?
Duymadım, uçdu getdi o məndən çox uzağa,
Taleh quşum başından enib düşdü tuzağa.**
O zamandan ki, mənim öz incimi çaldılar,
Sanasan ki, eşqimi, sevincimi çaldılar...

Olunca öz yurdundan, torpağından, daşından,
Gənc bir şair nə anlar, baharından, qışından?
Neyləyim mən ruhumu çox istəyən günəşi,
Harda mənim ilahım, harda könlümün eşi,***
Mən nə edəm günəşin doğub ta batdığını,
Önümə zəhər saçan bir gün yaratğını,
Mən o gündən nə sevinc, nə bir həvəs bilirəm,
Yabançı mahnılarla ağlayıram, gülürəm!..

---

* Müəllifin imlası imkan daxilində qorunmuşdur.

** *Tuzaq* – tələ, tor.

*** *Eş* – ekiz, bərabər, tay-tuş, yoldaş, yar.

ARKADAŞIM NAFİYƏ* BİR XATİRƏ OLMAQ ÜÇÜN ŞEİRLƏRİMDƏN BİR PARÇASINI YAZIRAM…

Səndən ayrılalı tutuldum yasa,
Bu xəstə könlümdə nalələr qaldı.
Gözlərim yaşardı buludlar kimi,
Sarışın çöhrəmdə jalələr qaldı.

Fələk varlığımı gənc ikən əzdi,
Qəlbimdə ələmlər, acılar gəzdi,
Əməl qönçəsini yad əllər üzdü,
Yerində yıpranmış lalələr qaldı.

Birlikdə bir zaman sevişməzmidik?
Könüldən nə keçsə bölüşməzmidik?
Üz-üzə dayanıb gülüşməzmidik?
İndi aramizda halələr qaldı...

1925, Bakı

---

* Nafi Almas İldırımla "İttilhad" məktəbində oxumuş Abbasqulu Əli-hüseyn oğlu Abdullayevin təxəllüsüdür. İldırımın Azərbaycandakı yeganə avtoqrafini uzun illər boyu xatirə albomunda qoruyub saxlayan Nafi, 1993-cü ilin iyununda 86 yaşında Buzovnada vəfat edib.

NƏRİMAN

Nəriman Nərimanovun vəfatı münasibətilə yazılmışdır

Şərqə bir səadət aradığın gün
Nəriman, üyrəyin parçalandımı?
Göz qapaqlarını yumarkən o gün
Dodaqların qoca Şərqi andımı?

Üfüqdən axdınmı, sən də söndünmü?
Sardı olüm rəngi dodaqlarını…
Nəriman, ölürkən heç düşündünmü
Şərqin issız* qalan bucaqlarını?

Ah, şimdi ayrıldın, qaldın uzaqda,
Kəsdi aramizı ölüm pərdəsi.
Söylə, gəliyormu sənə torpaqda
Viran Şərq elinin yanıqlı səsi...

Önümüzü kəsən dərəmi, dağmı?
Uçurumlar bizi qorxudacaqmı?
Ətrafımız olsa zalımlar dolu.
Yenə izləyiriz ğetdiyin yolu.

* *İssız* – boş, kimsəsiz.

DAĞLAR

Öpərkən alnından füsunlu bir yaz,
Axıyor döşündən sellər, a dağlar!
Yaşil, zümrüd gözlü yamaclarında
Açılır lalələr, güllər, a dağlar!..

Tarixdə namının silinməz şanı,
Karvanlar boynunun qızıl mərcanı,
Sinəndə kəsərlər ellər qurbanı,
Keçirərkən ağır illər, a dağlar!..

Torpağın cəvahir, daşların almas,
Çamlıqlar*geyinmiş ipəkdən libas,
Bəzən bilməm neçin saxlayırsan yas,
Quzğundan** əsərkən yellər, a dağlar?..

Çəkilmiş qəlbinə əskidən min dağ,
Titrəyir eşqini anan hər dodaq,
Yayılır şikəstə səsləri dağ-dağ,
Nə söylər bu qərib dillər, a dağlar?..

Zirvəndə oynayan ruzgarlar acı,
İllərlə görünməz başının tacı,
Anlat ki, dərdinin nədir ilacı,
Nədir bu dumandan tüllər, a dağlar?

Boynunda qızlardan rəngin bir dəstə,
Lalələr dağılmış yolların üstə,
Sən gəl bu ölkədən min qurban istə
Səndən əsirgəməz yollar, a dağlar!..

1927, Bakı

---

* *Çamlıqlar* – şam meşələri.
** *Quzğun* – Xəzər dənizinin köhnə adı.

DAĞLARA VIDA

Əzəldən can deyərək bu sevdalı ölkəyə,
Hər qadasın aldığım sana əyan, a dağlar.
Oxşarkən hər dərdini söz verdim ölüm deyə,
Onunçun bu çəkdiyim dərd bipayan, a dağlar.

Doğma yurdu tərk edib atıldım diyar-diyar,
Görmədim gənc ömrümdə yaşanacaq bir bahar.
Döndü həp düşmən oldu dost deyilən hər nə var,
Barı sən dostluğunda möhkəm dayan, a dağlar.

Qf, Bakı... Bu ayrılıq mana ölümdən ağır,
Aləmə bahar gəldi, sənə yağmur, qar yağır,
Gündüzlərin dumanlı, gecələr dilsiz, sağır*,
Bu boğulan səsimi varmı duyan, a dağlar.

Hicrinə tab edərsəm, dağları dələcəyəm,
Bir qanlı Sezar kimi mən yenə gələcəyəm,
Bir gün Eldəgiz kimi hayqıra biləcəyəm,
Artıq oyan, a dağlar, artıq oyan, a dağlar...

Bir gün gələr qoşaraq yurdumun harayına,
Mən atəş edəcəyəm düşmənin sarayına,
Nə düşər yurdu batmış bir igidin payına?
Ya şərəfli istiqlal, ya qızıl qan, a dağlar...

1927, Qızılburun

---

* *Sağır* – kar.

ARXİMED VƏ MƏN

Arximed deyir: “Gözlərimə boşluqda
Bir nöqtə, bir istinadgah görülsə,
Bir dəmirlə çevirərdim dünyanı...”
Mən deyirəm: Bu gənclikdə, bu yaşlıqda
Od gəmirən gənclik mana verilsə
Bir vuruşda devirərdim dünyanı.

1927, Bakı

QORKİYƏ

Sən, daşqın dənizlərin qayalarla çarpışan,
Yıldırımlar söndürən dalğasından yarandın.
Şahlarin hökm etdiyi yoxsullar ölkəsində
Ac, çılpaq “Ana”ların qəm, yasından yarandın.

Ölkədə qan saçırkən knyazların qfrmancı,
Sana düşmən kəsildi Romanovların tacı,
Onunçun dönüb oldu sözlərin, adın “Acı”
Yurdsuzları oxşadın, kimsəsizlərə yandın.

Əzəldən inqilabın sən ayrılmaz eşisən,
Boz dənizlərdə süzən fırtınalar quşusan,
Sən bu gün milyonların tanınmış yoldaşısan,
Dönməz mübariz kimi öz sözündə dayandın...

O MƏNİMDİR ƏZƏLDƏN

Əsmə, ey sabah yeli, böylə müxalif əsmə,
Tellərini pozduğun o sevdalı yar mənim.
Söz verdim gələcəyəm, gəl də, yolumu kəsmə,
O göy dəniz, yaşıl dağ, o güllü diyar mənim.

Könlüm alov saçarkən vulkan kimi dərindən,
Nə qorxum bir yolsuzun, imansızın birindən.
Bir ah çəksəm çalxanar, dağlar qopar yerindən,
Tarixlərdən ün almış bir şöhrətim var mənim.

Kim keçər dünyaları məst edən o gözəldən?
Mən onun öz yarıyam, o mənimdir əzəldən,
Yolunda döyüşürəm, vaz keçməm bu əməldən,
Ya o mənim olacaq, ya qanlı məzar mənim.

QAFQAZ DAĞLARINA

Ülküdaşım Leylaya*

Qanadım yox, uçub gəlsəm yaxana,
Sinəndəki şahinlərə eş olsam.
Ya da məğrur bir qartalin qonduğu
Köksündə bir əsirdidə daş olsam...

Göy bir bulud olub səndə gərilsəm,
Torpaq olub ayağına sərilsəm,
Bir gül olub sənin üçün dərilsəm,
Ya ovçunun şikarı bir quş olsam...

Baxıb dursam uzaq-uzaq izlərə,
Qulaq versəm səni anan sözlərə,
Həsrətinlə buludlanan gözlərə,
Səndən axan bir damlacıq yaş olsam...

* *Ülküdaş* – məsləkdaş

BİRLƏŞƏN İKİ NƏHR

Tarix boyu axdığı yerdən alıb izini,
Qoşmuş dəli Quzğuna Kür çağlaya-çağlaya.
Görüncə baş ucunda dərdli Türkmən qızını,
Araz da dərdə gəlmiş yas bağlaya-bağlaya.

Qucaqlaşmış o yerdə, birləşmiş iki bacı,
Biri eşqim, varlığım, biri başımın tacı...

Birində Qafgas qızı yıxamış gur saçını,
Yolunda qurban etmiş mənim kimi qaçını*.
Biri eş bulmaz, töksə gizli-gizli içini,
Yanarmış öz dərdinə qəlb dağlaya-dağlaya...

Buluşduqları torpaq yerdə cənnətin eşi,
Biri qəlbimdəki qan, biri gözümün yaşı...

Biri toplar suyunu min dərədən, min göldən,
Birinin bağrı yanıq, uzaqdan gələn seldən,
Biri mənim öz dilim, biri anlamaz dildən,
Yanaram arxasından, mən ağlaya-ağlaya...

Biri mənə doğma yurd, biri girdiyim qucaq,
Bir mənim, biri də... O da mənim olacaq!..

---

* *Qaçını* – neçəsini

O GÖZƏLƏ

Xatırlarmısan ki, orda bir zaman
Sənlə diləyə erdim*, gözəlim...
Sən məndən yadigar bir şey istədin,
Qoparıb qəlbimi verdim, gözəlim.

Məni qəbrə qədər götürsün deyə,
Zəhərmi qatmışdın sunduğun** meyə?
Mən lənət oxudum sənsiz hər şeyə,
Mən hər şeydə səni gördüm, gözəlim...

Muğan yaylasında, göy Mil düzündə,
Axdı qanım damla-damla izində,
Gəl vəfa qıl, sən də bir dur sözündə,
Mən sözüm üstündə durdum, gözəlim...

Kəbəm oldun, mehrabına diz qoydum,
Xızrım oldun, dərgahına göz qoydum,
Qərib düşdüm, torpağına üz qoydum,
Bir sormadın nədir dərdim, gözəlim?

Hara getsəm arxamda bir ahım var,
Varıb baş qoymağa bir dərgahım var,
Əlbət ki, mənim də bir Allahım var,
Gün gəlir hürr olur yurdum, gözəlim…

---

* *Erdim* – yetdim.
** *Sunduğun* – uzatdığın, təklif etdiyin.

A DAĞLAR

Çiçəkli qoynunda bir bağça tikdim,
Suvara-suvara göz yaşı tökdüm,
Gecə-gündüz əməyini mən çəkdim,
Yoldu meyvəsini yellər, a dağlar!..

Nədən küskün yaxandakı bülbüllər,
Harda mana layla çalan o dillər?..
Mən səslənsəm: ellər, ellər, ay ellər,
Əksi-səda gəlir: "ellər...", a dağlar!..

Söylə, nədən səs verməyir Xəzərim,
Mən ki, onun hər dərdini yazarım,
Sürgün olub uğrunda həp gəzərim,
Qismətim bu uzun yollar, a dağlar...

Söylə nədən dəli Kürüm çağlamaz,
İçdən coşub öz gününə ağlamaz,
Göy Muğanım nədən yaşıl bağlamaz,
Dərdlimidir o Göy göllər, a dağlar?..

Söylə, Şahdağlarım nədən yaslıdır?
Köksündəki qılınc, qalxan paslıdır?
Şairlərin nədən həzin səslidir,
Qərib sazda qırıq tellər, a dağlar?..

A dağlar, a dağlar, söylə, a dağlar,
Olurmu aşnalıq böylə, a dağlar?..
Yaman günüm yaxşı eylə, a dağlar,
Sana qurban bu könüllər, a dağlar...

ÖMRÜM XARAB OLDU HEY...

Kim dedi sana ki, çıxıb yoluma,
Gənc yaşımda göndərəsən ölümə,
Adını kim qazdı bilməm könlümə,
Gəl ki, sənsiz ömrüm xarab oldu hey...

Sən getdin, ardınca boynum büküldü,
Axdı, axdı göz yaşlarım töküldü,
Ellər, dostlar, birər-birər çəkildi,
Həmdəmim bir qədəh şərab oldu hey...

Doğmuşkən Süleyman taxtına Günəş,
Nə bir Müşfiq həmdəm, nə Cavad bir eş.
Nədir bu içimdə sönməyən atəş?
Könlümdə ümidlər sərab oldu, hey...

Mən bezginəm sənsiz hər bir günümdən,
Könül asi* bəxtə olan kinimdən.
Keçdim ugrunda Tanrımdan, dinimdən
Basdığın yer mana mehrab oldu, hey!..

---

* *Asi* – üsyankar

NE ÜÇÜN?..

Mən artıq nə yazım yurduma dair,
Düşmən zəhər saçır, dostlar gizlənir.
Bilməm öz yurdunu sevən bir şair
Nə üçün bir cani kimi izlənir?

Gizli yol kəsmədim, qaçaq olmadım,
Sakit bir həyatı pozmadım mən ki,
Heç kimə qanlı bir bıçaq olmadım,
Heç bir qətlə fərman yazmadım mən ki...

Bəs neçin qəribəm bu doğma eldə,
Məhbəsmi dörd yanım, mən ki boğuldum...
Məlun bir zamanda, məhkum bir ildə
Allahım, mən neçin şair doğuldum?..

1927

DURNACIQ*

Bu günlər mənim dərdim başdan aşqındı yenə,
Diqqət etsəniz əgər siz çöhrəmin rənginə,
Ən ağır bir kədərin duyacaqsız izini,
Dərdim gətirir cuşa qəlbimin dənizini.
İçimdəki tufanlar, fırtınalar, boralar.
Hər bir anda könlümü gah üzər, gah yaralar.
Hər baxışdan qəlbimə saplanar dərin bir ox,
Heyhat, yetim qəlbimin heç bir təsəllisi yox…
Bu getdiyim yolların ucu yox, bucağı yox,
Bəlalı baş qoymağa bir annə qucağı yox...
Durna, gəl qəbul et, sən bu çarpaşıq oyunu,
Tənəli söz önündə bükmə zərif boynunu.
Küsmə, sevdalı durnam, hər dərdimiz bəlli, gəl,
Gəl birlikdə bulalım baş-başa təsəlli, gəl.
Ğetmə durnam, getmə, dur, axı yollar dolaşıq,
Bir dinlə, bax nə diyor başı bəlalı aşıq...

---

* İlk dəfə çap olunan "Durnacıq" şeri bu illər ərzində əməkdar müəllim Humay Həsənzadənin hafizəsində yaşayırdı.

DURNALAR

Uçursunuz alnı açıq, üzü ağ,
Bağrım çatlar sizdən almasam soraq.
Yorulanda olur sizə oturaq
Göl kənarı yaşil çəmən, durnalar.

Qaqqıldaşın, qoy yatanlar ayılsın,
Əzilənlər qalxıb adam sayılsın,
Şöhrətiniz bu ellərə yayılsın,
Ey baş vurub göldə çimən, durnalar.

Arzum budur kəsilsin göz yaşınız,
Hər bəladan uzaq olsun başınız,
Çiçəklənsin torpağınız, daşınız,
Toxunmasın sizə düşmən, durnalar.

Mən özümə sizi sirdaş sanıram,
Arzunuzu düşünürəm, qanıram,
Halınıza od tuturam, yanıram,
Dərdinizi gəl bölək tən, durnalar.

MAYIS GÖZƏLİNƏ

Yeni proletar ədəbiyyatımızın
pioneri Süleyman Rüstəmzadəyə

Başında ipəkdən bir qızıl örpək,
Döşündə lalələr, güllərlə gəlir.
Bir bahar gülüşü mənimsəyərək,
Lentalı, qıvırcıq tellərlə gəlir.

Qarşıya çıxanlar dağılır düzə,
Çökər müjdəçilər önündə dizə,
Verməyə bir xəbər günəşdən bizə,
Nəşəli, seydalı dillərlə gəlir.

Gülüş – simasında pozulmaz bir şan,
Görənlər hüsnünə vermədə min can,
Qulağında sırğa, boynunda mərcan,
Ellər nişanlısı ellərlə gəlir.

İllərlə küsülü qəlbi acıdan,
Ellər sevinc umar qoyduğu tacdan,
Çiçəkli dərədən, zümrüd yamacdan
Dalğın, aşıb coşan sellərlə gəlir.

BİR EL AŞIĞININ DEDİKLƏRİ

(Qubada bir gün)

Günəş süzgün tellərini yığınca dağlar ardı,
Bənzədi bir yanıq qəlbə, axar sular qaraldı.
Büründü bir yas tülünə çəmən, çayır, dağ, dərə,
Qanad çarpan hər yetim quş çəkildi ənginlərə.
Dilbər köylü* qızlarının yas bürürkən üzünü,
Bir hıçqırıq tutdu axan pınarların** gözünü.
Qara gözlü gənc qızlara qayğı verən bir axşam
Xəbərini verdi göydə ilk olaraq yanan şam.
Başlarında dörd yüz illik bir köləlik kölgəsi,
Alnı açıq ixtiyarlar qaş çataraq ənginə,
Baxıyorlar üfüqlərin qan ləkəli rənginə.
Gənc igidlər at oynatmaz, qeyb etmişlər sevinci,
Ah bu dilbər obaların harda gömüldü dinci?
Uzun yoldan yorğun-arğın, bət-bənizi bulaşıq,
Əlində bir üçtelli saz gəldi bir qoca aşıq.
Görüncə hər gənc, ixtiyar ayağına vardılar,
Görünən bir Xızır kimi ətrafını sardılar.
– Gəl, gəl aşıq…
– Nerdən böylə?
– Uzaqmı gəldiyin yol?
– Gəl ruhumuz acıqlıdır, barı bizə nəşə bul!..
Aşıq güldü acı-acı:
– Nəşəmi? Mən görmədim,
Bu yollarda ömür verdim, bir sevincə ermədim.
Nəşə harda, bəklənirmi cəhənnəmdə bir bahar?
– Bəs sazının tellərində?..
– İniltilər, hicranlar…
– Biz qəmliyik, nəşələndir,
– Mənə deyil, saza sor…
Saz bu elin qəlbi, ruhu, heç olmurmu ona zor?

---

* *Köy* – kənd.
** *Pınar* - bulaq.

Sənin könlün nə istərsə…
– Yox barmaqlarda bir iş,
Yalnız dərdli tellərindir hər nəğmə, hər söyləyiş…
Aşıq bir az rahatlandı, toplandı köy başına,
Anladı ki, el müntəzir o dilsiz yoldaşına.
Bir ah çəkib aldı ələ, göz dikərək dağlara,
Atəşli bir qoşma qondu
o titrək dodaqlara:
– Durnam uçdu getdi uzaq ellərə,
Getdi, bilməm harda qaldı, gəlmədi…
Çox yalvardım aşıb-daşan sellərə
Uca dağlar duman aldı, gəlmədi…

Durnan uçdu, mənim boynum büküldü,
Xəzan gəldi, göy yarpaqlar töküldü,
Lalə soldu, yazın bağrı söküldü,
Bülbül öldü, gül saraldı, gəlmədi…

Durnam uçdu uzaq dağlar ardına,
Uğradımı bilməm Şimal qurduna?
Ellərə bir bahar, mənə fırtına,
Günəş söndü, qaş qaraldı, gəlmədi…

Əks edincə bu şərqi qarşıya qırıq-qırıq
Hamının gözlərində titrədi bir ayrılıq.
Bir axşam qəribliyi sinərkən aullara,
Daldı küskün baxışlar duman çökən yollara.
Bir Şeyx Şamil hiddəti qonunca dodaqlara,
İxtiyarlar qaş çatıb daxdılar Şah dağlara…

HİNDLİ QIZI

Yenə sordum o gözəl qızcığazı,
Yenə hicran onu sarmış dedilər.
Pürxəzənmiş* yazıq ömründə yazı,
Bir yəqin matəm olmuş dedilər…

Sızlayırmış yenə qəlbində sitəm,
Çırpınırmış yenə dərd ilə ələm,
Onu pək ağlatıyormuş acı qəm,
İncəcik qəlbini yormuş dedilər…

Qucuyorkən qara sis ellərini,
Uzadın Şərqə kiçik əllərini.
Pozuyorkən acı yel tellərini,
Qaynaşıb dərdi coşarmış dedilər…

Xırpalarkən onu hər qanlı bir əl,
İnləyirmiş o siyah saçlı gözəl,
Çağırır: “Azəri qız, qoş, bana gəl.”
Gözü bir nuru ararmış dedilər…

O soluq yavrunu şənləndirəcək,
Qəmli, gülməz üzü həp güldürəcək,
O axan yaşları bir an siləcək
İnqilab ordusu varmış dedilər…

---

* *Pürxəzənmiş* – payızla dolu

HİNDİSTANDA FIRTINA*

Derlər uzaq Hindistanın gül sinəsində,
Zəncirlənən doğma ellər qan qusar, ağlar.
Qoca Hindin bir hıçqırıq varmış səsində,
Üfüqlərdə səslənirkən oyanan dağlar.

Ənginləri ötən qara gözlü buludlar,
Axıb gedən dərdi Qanda şikayət eylər.
İlk baharın doğuşunu görməyən otlar,
Qərbin acı ruzgarından hekayət eylər.

Orda çılpaq annələrin sinəsində ac
Yavruların yapraq kimi solmada ömrü.
Sarılarkən kölələrin omzuna** qırbac,
Torpaqları çeynəyərək keçirir əmri.

Orda qoca Hind dənizi əsəbi, qaynar,
Sahillərin qəlbi qırıq qasırğalardan.
Çaylarında axıb gedən meyitlər oynar,
O dənizin udduğu qan, sovurduğu qan…
Fırtına var,
Fırtına var,
Parçalandı göy…
Üfüqlərin yıldırımlar doldu qəlbinə,
Qopacaqdı fırtınalar,
İşdə yandı göy,
Bu qudurmiuş qasırğalar nə istəyir, nə?
Çınlandı yer,
Çınlandı göy,
Çatladı dağlar…
Buludların üz-gözündə tələş var, tələş,

---

* Mənbələrdə bu şerin S.Rəhmanla birgə yazıldığı iddia edilir.
** *Omuz* – çiyin

Qopdu böyük bir zəlzələ,
Partladı dağlar…
Evərəstin ciyərindən qopdu böyük daş
Fırtına var,
Fırtına var,
Köpürdü çaylar,
Bir sel axdı meyitlərdən ümmana doğru.
San yerindən devriləcək qanlı saraylar,
Qoca hindin çatladı bax,
Çatladı bağrı.

Kinli Bombey, əski Qanqon, o qanlı Dehli
Bir həzz aldı fırtınadan, qızışdı üsyan,
Əsirlərlə zəncirli bir ölkənin əhli,
Gündüzlərə saçdı alov, gecələrə qan…
Qopdu çılğın fırtınalar
Coşdu axınlar…
Od gətirən gecələrin qəlbi qudurdu,
Qoşuldu bu fırtınaya uzaq, yaxınlar,
İngilislər bütün yolu bağladı, durdu –
“Hind bizimdi!”
“Çək əlini!”
Dalğalandı səs,
“O bizimdir,
Qır zənciri,
Götür kəməndi!..”
Səs verdi bu dalğın səsə hər inləyən kəs,
Sardı qanlı bir üsyan hər şəhəri, kəndi.
Qopdu Qərbin ölüm saçan qanlı ruzgarı,
Qan damladı fırtınanın odlu gözündən,
Üsyan edən hindlilərin kəskin başları,
Axdı Qanqın qan ləkəli coşğun üzündən.
Fırtınanın qəlbi quduz, durmaz, inləyir,
Qüvvət alır üsyan dolu qasırğalardan.
“Hind bizimdir!..”
Yalnız bunu, bunu dinləyir,
Yan, ey məlun Britaniya, qırıl, tökül, yan!

Savrılarkən torpaq üstə çanaq-çanaq qan,
Yanır, odlu Hindistanın qəlbi yanır, bax!
Söylə igid Hindirsona öyünməsin çox.
Hindi almış dişinə bir kinli fırtına
Qanadlanıb üsyanların minmiş sırtına,
Elə azğın bir üsyan ki, daşsa dənizlər,
Yenə böyük məqsədini durmadan izlər,
Elə çılğın bir üsyan ki,
Qorx sən özün də,
Partlamasın Londuranın məlun gözündə
"Ya azadlıq və ya ölüm…" Hayqıran üsyan,
"Hind bizimdir, çək əlini…"
Deyən zorlu fil
Tapdağında sürüklənən bir aciz deyil,
Bir gün gələr qəzəblənib tutacaq səni,
Xortumunda ümmanlara atacaq səni.
Fürsət ikən yığ şələni, başını al, qaç,
O köləlik zəncirini Hindistandan aç!
Yoxsa ölüm aman verməz, yıxar taxtını,
Bax onsuz da uğursuzluq sarmış baxtını.
Yan, ey məlun Britaniya, qırıl, tökül, yan.
Hind qurtulur,
Yarın olur.
Azad Hindistan.

QƏRBƏ

Yenə qanla dolmuş afaqın,
Canavar gözlərində kin parlar.
İti caynaqlı qanlı pəncədə,
Didilən, pək çox ağlayanlar var.

Ey siyah üzlü vəhşi əfriyyət,
Nə gözəl, kirli şöhrətin vardır.
Varlığından usandı bir xilqət,
Hakimin qan içən krallarıdır.

O krallar, o kinli cəlladlar
Hökm edən farsda, Çində, hər yerdə.
Qopuyor ölkələrdə fəryadlar,
Nerdə vicdan, ədalətin nerdə?

Varlığın hər dəmirlə, daşlarla,
Parçalansın da qanlı yaşlarla,
Nə deyim, ah, o gözlərin batsın.
Səni, ey Qərb, fələklər ağlatmaz,
Bir qədər bəklə sən də, sən də bir az,
Səni yalnız bir ağladan olacaq
O da əlbət, qızıl, qızıl bayraq.

PARİSƏ XİTAB

Ey quduz atlasların yaxasında qıvrılan,
Alovlu Fransanın damarlarını soran,
Mühitlərə qan saçan "mədəniyyət" ocağı,
Tarixlərdə ən böyük faciələr qucağı.

Sinəndəki tufanlar, fırtınalar, boralar,
Bax mənim də qəlbimi zaman-zaman yaralar.
O vəhşi göbəyində qanların çağladığı,
Köksündə kölələrin inləyib ağladığı,

Milyonlarla ac, çılpaq sürünən insanların
Yer altında gizlicə boğduğu göz yaşları,
"Altun" deyə zövq üçün kəsilən qurbanların
Gecələri Senaya fırladılan başları,

"Haqqım" – deyə üsyanlar, tətillərlə qaynaşan,
"Ölüm" – deyə acıqlı taleyilə oynaşan,
Acizlərlə əylənmək, gülmək asan deyildir,
Onların dəmir qolu dik başları əyildir.

Qorx ki, salonlarında içilən qanlı şərab
Mənim yıxdığım çarın içdiyinə dönməsin.
Möhtəşəm sarayların dönüb olmasın xarab,
Dünyaya kin püskürən tacın yerə enməsin.

SEN* ÇAĞLAR…

Paris kommunasına

Mən ömrümdə Parisin görməmişəm üzünü,
Enməmişəm o vəhşi, çılğın şantanlarına.
Qucmamışa, ac gözlü qəhbələrin dizini,
Baxmamışam sarayda vuran fantanlarına.

Orda ki, sinəsində südəmər dilsiz çocuq,
Ac və çılpaq annələr sokaklara atılar.
Orda ki, altun deyə gənc qızlar qıvrılaraq,
Bir saatlıq zövq üçün kabaklarda satılar.

Orda ki, aşıb-daşan dəli, quduz Sen çağlar,
Əks edər qəhqəhəsi hıçqıran gecələrə,
Dərdini bölən dilsiz qara daşlar, torpaqlar
Cavab verməz sorduğu gizli bilməcələrə.

Orda ki, Napaleonlar atəş saçıb durmuşdu,
Çevirmişdi dünyanı acizlərin başına,
Lüdoviklər hökmünü qan üstündə qurmuşdu,
Boyanmışdı zülmdən torpaqlar göz yaşına.

O yerdə ki, hala Sen qan içkisiylə yenə,
Sularında boğulmuş meyitlərlə oynaşır,
Orda "bəşər" naminə, "mədəniyyət" naminə
Dünyadakı ən çirkin rəzalətlər qaynaşır.

Orda əlli doqquz il bundan əzəl irmaqlar,
Coşğun bir inqilabın mahnısını dinlədi,
Əsrlər boyu gülməz sarı, solğun dodaqlar
Oxurkən o mahnını pək dərindən inlədi.

---

* *Sen* – Sena çayı

Orda yalnız bir bahar çiçək açdı, yaz oldu,
Döndü ancaq bir yazlıq tar gecələr gündüzə.
Ağlayanlar gülərkən göz yaşları az oldu,
Hər kəs inandı durdu söylənən şirin sözə.

İlk olaraq kölələr zəncirləri açaraq,
Möhtəşəm sarayların qırdılar qapısını.
İlk olaraq Parisin qapısında al bayraq
Qurdular leşlər üstdə qurbanlar yapısını.

Açıldı bir gün yenə fırtınanın qanadı,
Qara qanlı üfüqlər büründü bir çarşafa,
Senanın dəli qəlbi yenə coşdu, qanadı
Atılarkən bağrına minlərcə qanlı qafa…

Həftələrlə Parisin sokaklarında qanlı
Öz üsyanın qaldıran çılpaq leşlər uzandı.
Onunçun "Gözəl" Paris dillərə düşdü şanlı,
Tarixlərdən silinməz iyrənc bir ad qazandı.

O zamandan bağrında fırtınalar, boralar,
Qudurduqca daşları, torpaqları inləyir,
Bu dərd onun qəlbini hər gün bir az yaralar,
Dəli, coşğun atlaslar mahnısını dinləyir.

ŞƏRQƏ

Annə, artıq bu gün sən ağlama, gül…
Çünki qoynunda oynaşan bülbül
Coşaraq incə bir tərənnümlə,
Sənə bir bax nə söylüyor, dinlə…

Bu gün uğrunda çarpışan, vuruşan
Yavrular, qönçələr, gözəl qızlar,
Hərə bir yıldırım, yanar vulkan
Kimi gurlar, coşar, çaxar, qaynar.

Dərələr, dağlar, ölkələr aşıyor,
Bir yığın odlu yavrular qoşuyor.
Qoşuyor inləyən o fəryada,
Qoşuyor həpsi, həpsi imdada.

Sis, dumandan silindi, bax yollar,
Gəliyor həp dəmir qıran qollar,
Bir cəsur qız əlində bir bayraq,
Gurlu bir səslə daim hayqıraraq.

Söyləyir: “Durma, qaç, çəkil, düşmən…”
Bax nasıl titriyor səfil düşmən!
Titriyor xırda qorxacaqlar tək,
Qaçmaq istər rəzil qaçaqlar tək.

Qaçıyor bəlkə, durmadan qaçıyor,
Sanki dağlarda bir duman uçuyor.
Annə… Annə… yetər baxıb durma,
Odlu bir qəlbi gəl yaxıb durma.

Yetər artıq vərəmlə əlləşdin,
Bitdi hər şey – həp ayrılıq, hicran,
Səndə var şimdi elm, haqq, ürfan
Nə qədər bax bu gün gözəlləşdin.

ANANIN QIZINA

Ey əskidən bəri yasa bürünən,
Şərəfli anamın gülüzlü qızı,
Al şəfəqlər içrə indi görünən
Şərq üfüqlərinin pənbə yıldızı.

Bir zaman yurdumun qaranlıq qalan
Bucaqlarında sən ağlamazmıdın?
Hürriyyət eşqilə coşub çırpınan
Anamın ürəyin dağlamazmıdın?

Fəqət indi harda o dərin-dərin
Həzin nalələrin, iniltilərin?
Söylə, ağ günlərə çıxdınmı bur gün?
Zülmün heykəlini yıxdınmı bu gün?..

MÜSTƏMLƏKƏ OLMUŞ ŞƏRQƏ

Qanlı pəncələrdə göz yaşı tökmə,
Ey siyah örtüklü gəlini Şərqin!
Zalimə yalvarma, boynunu bükmə,
Azca açma daha əlini Şərqin.

Çökdüsə ortaya hicran, ağlama,
Oldusa ellərin viran, ağlama,
Verdinsə sən bir çox qurban, ağlama,
Bəyazlatma siyah telini Şərqin.

O şimdi inləyən naşadlarınla,
O qəlbindən qopan fəryadlarınla,
O igid çöhrəri övladlarınla,
Parçala, yax qara tülünü Şərqin.

Bax yenə coşuyor axan çayların,
"Qalx" deyə səsləyir Himalayların.
İnan ki, qoynunda üsyandır yarın,
Aydın et üsyanla yolunu Şərqin.

Silkin, ta qırılsın dəmir qəfəsin,
Sərvətin işlətsin "haqq" deyən səsin,
Zalim düşmənləri yaxsın nəfəsin,
Qaldır yüksəklərə yolunu Şərqin.

Ey parçalanmış Şərq, ey gözəl ana,
Bənzə dənizlərdə qopan tufana,
Aciz yox, cəsur ol, hayqır düşmana,
Əzməsin inləyən elini Şərqin!

YARIN*

(Şərq üçün)

Xəzan pəncəsində saralan güllər,
Şübhəsiz, şənlənib güləcək yarın.
Həsrətlə çırpınan xəstə könüllər,
Pək dadlı nəşələr sürəcək yarın.

Qırılacaq kirli, dəmir qəfəslər,
Daha gəlməyəcək o yanıq səslər,
Qaranlıqlardakı inləyən kəslər
Yaşlı gözlərini siləcək yarın.

Şərqə hökm edərkən qabarlı əllər,
Qönçələr verəcək soluq əməllər.
Bir şənlik görməyən o issız ellər
Səadət nə imiş, biləcək yarın.

---

* *Yarın* – sabah

ƏLVİDA, BAKI!

(Türküstana gedərkən)

Əlvida, ey müşfiq ana, əlvida…
Bu anda qəlbimdə nə dərin qəm var,
İçimdə bir sizi, gözümdə nəm var,
Əlvida, ey müşfiq ana, əlvida…

Səndə keçib getdi iyirmi dörd yaşım,
Bir zaman bəladan çıxmadı başım,
Sən oldun həmdəmim, dərdli yoldaşım,
Laylalar söylədin mana, əlvida…

Mən sana yad deyil, doğma oğuldum,
Öz qanından gül yaxanda doğuldum,
Günahım, "can" dedim sana, qovuldum,
Acımadın bu qurbana, əlvida…

Yox oldu Çəmbərəkəndi* gözlərdən,
Batıb getdi Pirvənzəli* izlərdən,
Kim nə anlar bu çarpaşıq sözlərdən,
Bunlar bir xatirat mana, əlvida…

Bir zaman qoynunda mən də yaşadım,
Sokakdan-sokaka** səsləndi adım,
Bilməm sönəcəkmi səndəki yadım?
Bəlkə də dönəməm sana, əlvida…

Bax nə deyir yenə bu coşğun Xəzər,
Qoynunda Şimaldan gələn yad gəzər,
Bu bir dərd ki, məni ömrümcə əzər,
Salır məni haldan-hala, əlvida…

---

* *Çəmbərəkənd, Pirvənzəli* – Bakı məhəlləsi
** *Sokak* – küçə

Uzaqda qaralır Qızlar qalası
Söylər ki, başımın çoxdur bəlası,
Nerdə öz oğulu, igid balası,
Acısın düşdüyü oda, əlvida…

Mənim günahım yox, məni bağışla,
Çox çarpışdım, düşdüm tufanla, qışla,
Bəzən salam göndər sən də bir quşla
Getdiyim yer Türküstana əlvida…

Əlvida, ey gözəl Bakı, əlvida!
Sağlıqla qal, son sözüm bu, əlvida!..

GİCGİNƏ

I

Mən Krımın sahilini
Gəzib-gəzib dolaşdım.
Yaşıl, dilbər təpələrdən,
Uca dağlardan aşdım.

Yalı boyu Qara dəniz
Dalğalanıb köpüyor.
Sahildəki Gicginənin
Ətəyindən öpüyor.

Gətirərkən sular dilə
Sahildəki daşları,
Gicginənin gözlərində
Sallanır göz yaşları.

Gicginə, o macəralar
Yavrusunun beşiyi,
Qara dəniz sahilində
Tuqay xanım köyüşü.

Köhnə saray Livadiya
Sağ böyründə tikili.
Bağ başında sandalyanın
Qərib boynu bükülü.

Sol böyründə uçub gedən
Bir fırlanqıc yuvası.
Keçən əsrin keçib gedən
Gözü yaşlı durnası.

Gicginə, o dilbər qızın
Adladığı təpələr,
Mahnısını dinlər imiş,
Dərdin bilən ləpələr.

Tuqay, yalı boynunda bir
Böyük tacir sanılır.
Hər yanda ad qazanmışdır,
Hər tərəfdə anılır.

Onu bəlkə imperator
Böyük bilir, tanırdı.
Otağında silsilələr,
Çılçıraqlar yanırdı.

Adlı xanlar, bəyzadələr,
Knyazlardan qonağı.
Hökmündəydi dağlardakı
Qaçaqların yığnağı.

“Qız salonu” süslənirdi
Əsir düşən qızlara.
Saf altunlar səslənirdi
Kisələrdə yüzlərə.

Şərq elindən gələn qızlar,
Satılırdı bəylərə.
Əks edirdi göz yaşları
Ulduzlara, aylara.

Zövqü üçün bütün qullar
Sərf edirdi ömrünü.
Torpaqları çeynədərək,
Keçirirdi əmrini.

Qara dəniz, Qara dəniz
Köpürürdü, coşurdu.
Gəmilərlə gələnlərin
İmdadına qoşurdu.

Gələn qullar boynu bükük
Salamlarkən sahili,
O müləvvəs* gecələrin
Kilidlənirdi dili.

II

Gicginə sahil boyunda
Bir balıqçının qızıydı,
Gözləri göy dəniz rəngi,
Yanaqları qırmızıydı.

O hər gün axşam çağında
Çıxardı sahil düzünə,
Göy dənizdən əsən ruzgar
Tökərdi saçın üzünə.

Onda bir tatar qızının
Məhzun, dilbər üzü vardı,
Gizli sevgi ulduzunun
Gözlərində izi vardı.

Bəzən sorar dalgalardan
Sevdiyinin durağını.
Dalğacıqlar gəlib dilə,
Verməzdi sorağını:

– Xasay, Xasay, igid Xasay
Dənizlərin elçisidir.
Gəlməyəcək sənə bu ay,
Uzun yollar yolçusudur.

---

* *Müləvvəs* – ləkələnmiş, murdarlanmış.

Xasay yoxsul bir tatardı,
Sürməmişdi gənc ömrünü.
Omuzunda daşıyırdı
Tuqay xanın hər əmrini.

Gəmidə bir muzdur kimi
Çapalayıb durardı o.
Bəzən coşğun dalğalardan
Gicginəni sorardı o.

Titrək, durğun gözlərindən
Sıcaq incilər damardı.
Sevdiyini salıb yada
Sahilləri salamlardı…

O zamanlar Qara dəniz
Fırtınalı, boralıydı.
Sular coşğun, əsəbiydi,
Daşqın qəlbi yaralıydı.

Üzərində əsən yellər
Köpürürdü tufanını.
Gəmidə hıçqıran qullar
Coşdururdu üsyanını.

Sahildə sərt qayaları
Kökündən yıxmaq istərdi.
Qan ləkəli bu yalları
Üsyanla boğmaq istərdi.

III

Yenə yelkənli bir gəmi,
Yaxınlaşırdı körpüyə.
Əsirələr gəldi deyə,
Göylərin artırdı qəmi.

Tuqay xanın gözlərində
Sar altun parıltısı,
Gələnlərin üzlərində
Hicran yaşı, ələm yaşı.

Zəncirlənib aparıldı
Tuqay xanın sarayına.
Göy sərvlər səs verdilər
Zəncirlərin harayına.

Qız salonu doldu yenə
Şərqin yetim qızlarıyla.
İnləyərək satıldılar,
Dəllalların sözləriylə.

IV

Bir gün yenə Gicginənin
Dərdləri coşdu, çağladı,
Çıxdı qalın ormanlığa
Gizli ağladı, ağladı.

Bir aralıq Tuqay xanın
Qız ovlayan ovçusu,
Qarşı çıxdı Gicginəyə
Oldu onun alıcısı.

Qız çırpınıb qarşı durdu,
Çox yalvardı, çox ağladı.
Fəqət Tuqay xanın qurdu
Tutdu qolların bağladı.

Qaçmaq üçün yolu bağlı,
Yetməzdilər harayına.
Düşdü əli, qolu bağlı
Tuqay xanın sarayına.

O sevdalı Krım qızı
Düşdü qızlar salonuna.
Dərdli gecələr ulduzu
Büründü qəmdən donuna.

Baxdı baş ucunda duran
Tuqay xanın gözlərinə.
Dəli, çılğın məclis quran
Knyazların özlərinə.

Bir yanda qul əsirələr,
Bədənləri bütün çılpaq.
Bir çoxunun omuzunda
Qamçıların qoyduğu dağ,
Qıvrılıblar ilan kimi,
Atəşdə qıvrılan kimi.

Əsir düşən Gicginənin
Saray dolandı başına.
Heyran-heyran baxıb durdu
Tutuldu həp göz yaşına.

Ürəyində sevdiyinin
Günahsız eşqi canlandı.
Atasını salıb yada,
Qıvrıldı, qıvrıldı, yandı.

O şimdi bir ölü kimi
Zavallı, boynu bükülü.
Yorğun pərişan telləri
Açıq omuza tökülü.

Baxıyor bir durna kimi
Gözlərində parıltılar.
Əks edəməz qulağına
Saraydakı gurultular.

Tuqay xanın damarında
Ehtiras coşdu, qaynadı,
Baxıb dilbər Gicginəyə
Zövqü yerindən oynadı.

Əmr elədi duran qula
Aparılsın otağına.
O hər zaman hazırlanmış
Əsirələr yatağına.

Knyazların əlində mey
Oynadaraq gülüşdülər.
Sonra durub zəncirlənən
Gözəlləri bölüşdülər.

İlan kimi qıvrılaraq
Hərə çəkildi bir yana.
Dodaqlar kinli, möhtəris,
Damarlar gəldi həycana.

Hər bucaqda, hər guşədə
Yüksəldi nalə, hıçqırıq.
Ət çignəyən dişlərindən
Üzlər oldu qırıq-qırıq.

V

Tuqay hələ girməmişdi
O zəncirli otağa.
Gicginə bir sola baxdı,
Bir də qanlı yatağa.

Pəncərəyə yaxınlaşıb,
Baxdı sahil boyuna.
Ay nurunu səpirdi
Göy dənizin suyuna.

Gecələrin dərdli yeli
Xəfif-xəfif əsirdi.
Gicginənin ğir qeyb əli
Ümidini kəsirdi.

Dalğaların iniltisi
Ulduzların atəşi,
Sevdiyini xatırlatdı
Ayın solğun baxışı.

O bir həftə bundan əvvəl
Mavi gözlü o dilbər
Bir gecədə dədləşirdi
Sevdiyilə bərabər.

Xatirələr xəyal kimi
Gəlib keçdi gözündən.
O, ayrılmaq istəmirdi
Sevdiyinin izindən.

Qəlbindəki qırıq-tökük
Əməlləri dirilirdi.
O zəncirli həyat ona
Bir cəhənnəm görünürdü.

Bəlkə daha son olaraq
Ümid ona gülməz idi.
Bəlkə daha Xasaycığı
Onu görə bilməz idi.

O yaşamaq istər idi,
O yaşamaq istəyirdi.
Tale ona son olaraq
Qanlı bir yol göstərirdi.

Dodaqların çeynəyərək
Acı-acı düşünürdü.
O anda bir gümüş xəncər
Gözlərinə ilişirdi.

Alıb baxdı, hənuz qanı
Silinməmiş dururdu.
Tuqay onu əsirələr
Sinəsindən vururdu.

O an idi yan otaqdan
Bir əsirə inlədi.
Qalxıb-enən nəfəsini
Dilsiz gecə dinlədi.

O an idi Tuqay xanın
Gurlu səsi yaxlaşır,
O günahsız qızcığazın
Son nəfəsi bağlaşır.

Bütün ömrü gömülsünmü
Cavan ikən torpağa?
Ya dönsünmü yataqlarda
Çignənən bir yarağa?

Ya dönərək bir igidə
Ona qarşı dursunmu?
Qan damlayan poladcığı
Sinəsindən vursunmu?

Qərar verdi, gözlərində
Qan izləri oynadı.
Ürəyində quduz kimi
Bir intiqam qaynadı.

Qan ləkəli poladcığı
Basdı yumşaq qoynuna
Saçlarını dağıdaraq
Düzdü bəyaz boynuna.

Tuqay girdi, gözlərində
Vəhşi zövqün nəşəsi,
Gicginənin işvələrlə
Boyalıydı çöhrəsi.

Qarşılayıb Tuqay xanı
Sürüklədi yatağa,
Bu anda bir dəli fəryad
Əks eylədi otağa.

Bir ah çəkib düşdü yerə
İnləyərək Tuqay xan,
Axdı bəyaz yatağına
Kin püskürən qızıl qan.

– Vurulmuşdur Tuqay, – deyə
Səs-küy düşdü saraya.
Bütün qullar, əsirələr
Qoşulmuşlar haraya.

Gicginənin qəlbi quduz,
Qan çökmüşdü gözünə.
Dəli kimi baxmadaydı
Gələnlərin üzünə.

Əlindəki xəncərindən
Damlayırdı qızıl qan,
Yoxsulların göz yaşından
Laxtalanmış rəzil qan.

Zatən böyük paşaların,
Knyazların, bəylərin,
Zatən bütün torpaqların
Dənizlərin göylərin.

Tarixlərlə savırdığı
Qan göz yaşı deyilmi?
Sultanların içdiyi mey
Haqsızların al qanı

Kölələrin göz yaşıdır
Əsirlərin fəğanı.

Tuqay xanı həp bulaşmış
Görüncə al qanına,
Bütün sərxoş knyazların
Qorxu düşdü canına.

Əsirələr, bütün qullar
Saraya kin saçdılar.
O köləlik zəncirini
Qollarından açdılar.

O zamandan Tuqay xanın
Qız salonu boş qaldı
O yüzlərcə qız çegnənən
Vəhşi saray loş qaldı.

Günlər keçdi, aylar ötdü,
Bir çox illər dolandı.
Qara dəniz sahilləri
Qızıl qanla bulandı.

Bir gün dəli bir zəlzələ
Qopdu, yerlər sıxıldı,
O möhtəşəm şən saraylar,
O qapılar yıxıldı.

O zamandan o yerlərə
Dalğalar baş əyirlər.
Yavaş-yavaş Gicginənin
Sahilinə dəyirlər.

O zamandan o sarayda
Gicginənin yadı var.
Gicginə yox, yalnız onun
Şən dillərdə adı var…

“POTYOMKİN”

(Tarixi poemadan bir parça)

Qara dəniz qara gözlər kimi dalğın, qaynaşır,
Üzərində əsən çılğın ruzgarlarla oynaşır.
Üfüq qara dumanlardan bir çadraya bürünmüş,
Göy üzündən axıb gedən o sevdalı, o gümüş
Ay suların göy bağrına solğun bir nur səpiyor,
Dalğacıqlar oynadıqca, Qara dəniz köpüyor.
Bir fırtına müjdəsi var üfüqlərin gözündə,
Qasırğalar rəqs etmədə göy dənizin üzündə.
“Potyomkin”in polad döşü ağ köpüklər saçaraq,
İrəlləyir göy suların bağrında yol açaraq…
İrəlləyir… Səslənərkən sular ona qızıyor.
İrəlləyir… Dalğaların hücumunu pozuyor,
İrəlləyir… Güvənərək içindəki üsyana,
Döyüş gərmiş polad döşlər fırtınaya, tufana…
İçindəki bəhriyunlar and içərək dərindən,
Qoparmışlar o dik başlı leytenantı yerindən,
Almış ələ “Potyomkin”in sükanını üsyankar
Bəhriyunlar ilk olaraq o yırtıcı, canavar
Leytenanta qızğın hücum atəşini açmışlar,
Qara dəniz sularında dəli bir kin saçmışlar.
O üsyankar “Potyomkin”in ilk açdığı al bayraq,
İlk olaraq “şaha” üsyan tellərini vuran o,
İlk olaraq vəhşiliyə köks gərib duran o,
O Qəhrəman “Patyomkin”in çəlik qəlbi döyünür,
Qara dəniz onun ölməz qüruruyla öyünür,
Almış onu köpük saçan dəli məğrur qoynuna,
Salmış onu qasırğalar, fırtınalar oynuna.
Buraxdığı qara, qalın dumanlardan yas damlar,
Al bayrağı öpən yellər sahilləri salamlar...

SƏLİM XAN

(Tarixi poemadan parçalar)

Çeçenli Ə.P-yə

Xəyalımda yer etmiş,
İxtiyar dağlarınız
Sənlə gəzdiyim o,
Bəxtiyar dağlarımız…

Giriş

O zaman ki, Qafqazın ixtiyar dağlarına
Üfüqlərdə ağ başlı qara duman çöküyor,
O zaman ki, buludlar şimşəklə öpüşərək,
Axıb gedən Arğuna göz yaşını töküyor,
O zaman ki, gözünü qırparaq nazlı günəş,
Yaslanır yavaş-yavaş qoca dağlar ardına,
O zaman ki, qanadın çarparaq hər yetim quş
Çəkilir ormanlığa, göy budaqlar ardına,
O zaman ki, gülüzlü dilbər çeçen qızları,
Dönərlər addım-addım bulaqların başından,
Köpüklərlə qaynayan irmaqların başından,
Dodaqlarında çınlar odlu çeçen mahnısı.

Çeçen mahnısı

Aylay-la-yalay-aylay-la-valay
Yalay-la-aylay-valay-la-aylay…
Dodaqlarında çınlar odlu çeçen mahnısı.
O zaman ki, qəhrəman, igid çeçen elləri
Doğma yurdun sevimli torpağında süründü,
Onda dəmir hasarlı Vedonolun yolları
Çar göndərən ağ atlı kazaklarla büründü.
O gündə ki o cəllad polkovnikin çəkməsi
Dəydi bizim Çeçenin torpağına, daşına.
O zamandan Səlim xan doğma yurddan ayrılıb,

Dırmandı o vüqarlı, qoca dağlar başına.
Onun yumşaq yatağı qara daşdı, torpaqdı,
Tük yastığı kötüklər, mavi göylər yorğanı.
Acanda çeynədiyi sarı, solğun yarpaqdı,
İçdiyi su çöllərin yağmur gözlü dumanı.
O zaman ki, dumanlar tökülürdü dağlara,
Yüksəlirdi dərədən ac qurdların səsləri.
O çiynində tüfəngi çəkilirdi dağlara,
Buraxmazdı yaxına ona düşən kəsləri.
Çox general, polkovnik düşdü onun izinə,
Əmr elədi Səlim xan yuvasında tutulsun,
Lakin o ürəyini alaraq öz dişinə
Kimsəni buraxmazdı üzərinə atılsın.
O zaman ki, talanmış, məxmər donlu obası
Zalımların əlindən gizli-gizli yanardı,
Onda bizim Səlim xan qaçaqların babası
Başı qarlı dağların zirvəsinə qonardı.
Aylay-la-valay-Alay-la-valay…
Dinlərkən bu mahnını, baxdım, çeçen dağları
Qafqasların pozulmaz qüruruna büründü.
Mənə nəql edər kimi titrəyən dodaqları,
Gözlərimdə Səlim xan yapıncıda göründü.
O bəzən Vedonolun yollarında at üstdə
Dərələrdən adlayıb, təpələrə dırmanır,
Bəzən də qartal kimi sən iki qanad üstdə
Şahinlərin qonduğu zirvələrə dayanır.
Gecələr gözlərinə uyğu girməmiş derlər,
Saatlarca baxırmış kəndi doğma yurduna.
Uzaqmış Xoraçoydan onun gəzdiyi yerlər,
Verərmiş arxasını qarlı dağlar ardına.
Mən görmədim bunları, mənimçin bir ixtiyar
Titrək dodaqlarıyla söyləmişdi Çeçəndə,
Səlim xanı tanıyan, istəyən hər bəxtiyar
Sorsun daşa, torpağa Xoraçoydan keçəndə…
Bir gün yenə riyakar, uzun dilli bir çeçen

Xain dilin uzadıb yaltaqlandı marşala,
Dedi: – Yatma bu gücə, dağlardadır, Səlim xan…
Yenə bir tor quruldu o çeçenli qartala.
Çalındı tunc, baraban ordu döndü dənizə,
Zəncir kimi sardılar dörd tərəfi, dörd yanı.
Səlim xanın papağı göründü dağ başında
Marşal ağzı köpüklü, görüncə Səlim xanı
– Dur! – Dedi, – qaçamazsan, qımıldanma, təslim ol.
Yox sənə artıq aman, hünərin var, çıx üzə.
Səni o öyündüyün, durduğun dik qayadan
Bir qartal kimi alıb fırladaram dənizə.
Səlim xan gülümsədi: – Haydı, qoçaq marşalım,
Al ordunu, çəkil get, can-başın sızlamadan.
Sən özün qorx, yatdığın o qara gecələrdə
Bax yastığın altına, yoxmu orda Səlim xan.
İgid marşal, ormanda çox qurbanlar görmüşəm.
Ki, onları yalnız bir qurd balası hürküdür.
Çoxunu göz açınca dik alnından vurmuşam,
Bu başımda gördüyün igid çeçen börküdür.
Axmaq o dəli şahdır ki, səni qoymuş hakim
Haqsızca hökm etməyə bu çeçen ellərində.
Haydı başla, baxalım, qorxaq kimdir, qoçaq kim?
Hünərlisən, sən dayan o durduğun yerində…
Çalındı tunc, baraban, hücum əmri verildi.
Səs düşdü o dumanlı, qoca, kəskin dağlara,
Hər kəs sandı ki, artıq igid qartal vuruldu,
Səlim xansa güvənib uca, kəskin dağlara,
Nişan aldı marşalın dəli məğrur başını,
Vuruş daha tutmadı, sərildi marşal yerə,
Ağ atlı kazaklara od düşdü birdən-birə,
Onda çeçen dağları çatdı gərgin qaşını,
Səlim xan gülümsəyib yapıncıya büründü,
Atdı dəmir çiyninə can yoldaşı tüfəngi.
Knyazlara od saçan Çeçenistan qaçağı
Uca, qarlı dağların dik başında göründü…

Xaraçoy

Xaraçoy, Xaraçoy, dilbər Xaraçoy,
Qaçaq Səlim xanın doğma yuvası.
Dağların bağrında atmış göyə boy,
İgid çeçenlərin yaşıl obası.
Ətrafı dumanlı dağlarla mühat*
Üstündə buludlar qanadlı bir at,
Duman uçmadadır dik zirvələrə,
Bir yanı başları döndərən dərə.
Dərənin qəlbində göz yaşı çağlar –
Qayalardan sızan sərin bulaqlar.
Qafqasın ən gözəl, dilbər görüşü,
Bu qoca dağlar ki, ordu yürüşü
Kimi düzülmüşdür arxa-arxaya.
Uçrumun başında duran hər qaya
Məğrur bir görkəmə bürünüb durur,
Torpağında qürur, daşında qürur,
Baxdıqca insanın qəlbi döyünür.
Dünyaya işvələr salan dağlarla
Öyünür bu qoca Qafqas, öyünür.
Xaraçoyda Səlim nəcib və yoxsul
Bir gənc tanılırdı, görənlər deyər,
Ömründə verməmiş haqsızlığa yol,
Kimsədən mərhəmət ummaz, baş əyməz,
Ərlər məclisində özünü öyməz.
Atılmış zəhmətə on dörd yaşında,
Bir böyük ailə vardı başında.
O qoca babası saç-saqqalı ağ,
Səlimi özünə sanırdı dayaq.
Əlində doxsan beş illik bir əsa,
Hər axşam gözlərdi onun yolunu,
Tarladan döndüyü bir az gec olsa,
Titrək əllərini qaldırıb göyə,
İgid nəvəsinə dua oxurdu,

---

* *Mühat* – əhatə olunmuş

Qaşlarını çatıb yola baxırdı.
O hər axşam bulaq üstə keçəndə,
Gözəl qızlar ona qaş-göz atardı.
Özünü sevdirmək üçün Çeçendə
Gözəllərdə böylə bir adət vardı.
Bir çoxu ürəkdən ona məftundu,
Bütün gənclik ona bəlkə mədyundu*
Səlim xan, Səlim xan – iyid bir oğul
Görmək istməzdi çeçenlini qul.
Zövqünü oxşardı hər tütən baca.
Anası altımış yaşlı bir qoca,
Səlim xanla hər gün çöldə bərabər
Gah toxum səpərdi, gah şumlardı yer.
Bacısı Fatimə hər gün günorta
Əlində duz, çörək, yağ və yumurta,
Yalın cığırlardan keçib o taya,
Aparırdı onlar üçün tarlaya.
Tərli sevinclərlə, şən gülüşlərlə
Hamısı birlikdə edərdi nahar.
Böyləliklə hər il gəlib keçərdi
Dağların qəlbində açan bir bahar…

Sürgün

Bir gün çardan əmr olundu
Ağ atlı bir qazağa,
Xəbər verin, Çeçen yurdu
Köçürülsün uzağa!

Yayılarkən aullara
Kin dolusu bu xəbər,
Çatıb durdu qaşlarını
Hər çeçenli igid ər.

---

* *Mədyun* – borclu

Qəlbi qırıq annələrin
Doldu yaşlar gözünə,
İxtiyarlar baxıb durdu
İgidlərin üzünə.

Nasıl oldu çar naminə
Böylə əmr verildi?
Çeçenlərin sürgünlüyü
Nədən rəva görüldü?

Bir qanunmu doğma yurdu
Tərk eləsin çeçenli?
Tanrı bizə çoxmu gördü
Bu torpağı, bu eli?

Biz köçmürük uzaqlara,
Məskənimiz bu bizim.
Yer vermərik kazaklara,
Torpaq bizim, su bizim…

Xəbər çatdı polkovnikə
Əmrə qarşı çıxmışdan.
Bir az keçdi üç atlı
Kazak endi yoxuşdan.

Bu çeçenli xain zabit,
Bayquş kimi uğursuz.
Hayqırınca susdu bütün
Çoluq, çocuq, gəlin, qız.

Qurnaz zabit əlindəki
Kəskin əmri oxudu,
Annələrin ağ telinə
Qara ləçək toxudu.

Çarın əmri budur dedi:
Haydut çeçen ərləri,
Alıb pozğun annələri
Tərk etsin bu yerləri!

Yetər artıq bu ölkənin
Varı, yoxu talandı
Yetər artıq çeçenlilər
Quldurluqla dolandı!

– Bizmi quldur?
– Oh, yaramaz!
– Səndə çeçen qanı yox!
– Bu təhqirə dayanılmaz!
– Zülm evinin sonu yox!

Bizmi çapdıq bu ölkəni,
Yaxud kazaklar, ruslar?
Bu böhtana dayanırmı
Kazbeklər, Elbruslar?

Bütün bir kənd dalğalandı
Dəniz kimi daşdılar,
Əmr olundu kazaklara
Həpsi atəş açdılar.

Qopdu qanlı bir fırtına,
Ölüm hökmü verildi.
Qarşı duran igid gənclər
Bir-bir yerə sərildi.

Annələrin köksü açıq
Qan ləkəsi döşündə,
Tutulmuş bir hıçqırığa
Ölənlərin başında.

İxtiyarlar sinəsində
Üç yüz illik odlu dağ.
Saçları qanlı, günəşə
Etmədəydi əlvida…

Axşam çökdü, mavi göylər
Pərdə çəkdi üzünə,
Bir hıçqırıq qondu axan
Pınarların gözünə.

“Köç edənlər” yavaş-yavaş,
Yol üstünə çıxdılar.
Yaşıl, doğma yurdlarına
Son baxışla baxdılar.

İxtiyarlar düşdü önə,
Çoluq-çocuq həp yaya.
Qız, gəlinlər dönə-dönə
Baxırdılar arxaya…

Yol aldılar ənginlərə
Bu dağılmış dəstələr.
Yollarda can verə-verə,
Göz yumurdu xəstələr.

Dul qalanlar gözü yaşlı
Salamlardı dağları.
Andılar həp bayquşlara
Buraxılan bağları.

Bir ixtiyar çıxıb baxdı
Bir təpədən geriyə,
Gördü yanır od içində
Göy əriyə-əriyə.

Son olaraq yanan yurdu,
Həsrətlə salamladı,
Gözlərindən iki damla
Od damcısı damladı.

Çarın əmri buymuş – dedi
Doğma yurdu burax, get
Neron olsa belə artıq,
Yaşamaz bu səltənət…

Deyə gözdən qeyb olaraq,
Toz içində itdilər.
Tale üçün üfünləri
Dolaşaraq getdilər…

* * *

Xoraçoy, Xoraçoy, dilbər Xoraçoy,
İgid çeçenlərin doğma yuvası,
Dağların qoynunda atmış göyə boy,
Zəhmət sevənlərin yaşıl obası…

Ətrafı dumanlı dağlarla mühat,
Üstündə buludlar qanadlı bir at.
Duman uçmadadır dik zirvələrə,
Bir yanı başları döndərən dərə.

Dərənin qoynunda göz yaşı çağlar –
Qayadan fışqıran buzlu bulaqlar.
Qafqasın ən gözəl, dilbər görüşü,
Bu qoca dağlardır ordu yürüşü.

Kimi düzülmüşdür arxa-arxaya.
Uçurum başında duran hər qaya,
Məğrur bir görkəmə bürünüb durur,

Torpağında qürur, daşında qürur.
Baxdıqca insanın qəlbi döyünür,
Çiçəkli dağlarla, qarlı dağlarla
Öyünüb bu qoca Qafqas, öyünür.

Ağ saç bir ixtiyar nəcib və yoxsul,
Ömründə verməmiş haqsızlığa yol,
Kimsədən mərhəmət ummaz, baş əyməz,
Ərlər məclisində özünü öyməz.
Atılmış zəhmətə cavan yaşında,
Bir böyük ailə vardı başında.

O öz zəhmətiylə xoş dolanırdı
Səlimi özünə dayaq sanırdı.
Ondan kiçik oğlu Sultan Muraddı,
Oğullar oğul yox, alovdu, oddu.
Səlimxan, Səlimxan igid bir oğul,
Görmək istməzdi çeçenlini qul.
O da cocuqluqdan dağlara məftun,
Elinə mərhəmət, şəfqət dilərdi.
Onu səsləyirdi köpüklü Arğun,
Haqsızlığa qarşı susmaz bir ərdi.

Görüncə yurdunu odlar içində
Qəlbi çıldırırdı, coşurdu qanı,
Qalırkən Vedeno yadlar içində
Damarrında aşır-daşırdı qanı…
O açıq görürdü çeçendə hər gün
Yoxsul kəndlilərin talandığını,
Duyardı, at üstdə keçəndə hər gün
Göylərin başına dolandığını.

Bəzən Vedenoya düşəndə yolu,
Gözlərindən nifrət odu yağırdı.
Talanmış görərkən sağı və solu
Həsrətlə dağlara doğru baxırdı.

O zaman Vedeno möhkəm bir qala,
Orda polkovnik olurdu sakin.
Dağlar baş əyirkən o “ağ qartala”
Çeçen ölkəsinə salırdı bir kin.

Orda həyat vardı: duxan, restoran,
Sərxoş zabitlərin əllərində qan,
Qan dolu qədəhlər səslənirdilər.
Çeçen qanı sorub bəslənirdilər.
Orda fahişələr, şansonetkalar…
Çalğın duxanlarda qiyamət qopar.
Orda orkestro, klub, kazino,
Əyləncələr yurdu, sisli Vedeno,
Hər gün zövq içində atılardı həp.
Orda polkovnikin büsatı vardı.
Cənnətə oxşar bir həyatı vardı.
Orda kazakların qurduğu məclis,
Çar soldatlarının sorduğu məclis.
Orda çeçenlərin alınmış haqqı
Quldurlar əliylə çalınmış haqqı
Orda Nikolayın buyruğu vardı,
Kin saçan dəli bir “quyruğu” vardı.
Hökmündəydi bütün çeçen yurdları,
Yığaraq başına bəyaz qurdları,
O “dəli qartalın” vəhşi qurbanı
Talayırdı bütün eli, obanı.
Orada çeçenlər ağlar dururdu,
Dərələr səslənib, dağlar dururdu.
Dumanlar acıqlı, yellər acıqlı,
Terekdə quduran sellər acıqlı!

Dərələr qorxulu, üfüqlər qanlı,
Əngində qaş çatan dağlar dumanlı.
San bir fırtınaya tutulacaqdı,
Ölümlə qovğuya atılacaqdı…



YARIMÇIQ QALMIŞ ŞEİR...

O zamanlar çocuq idim, təbiətin qoynunda
Tam asudə yaşar idim, tanımazdım istibdad.
Fırlanardım daim könlüm sıxılmayan yerlərdə,
Adım Almas, qorxu bilməz, şücaətli bir övlad.

Xoş sözlərlə atam, anam evdə mənə hər zaman
Həpsindən çox nənəm, babam, nəsihətlər edərdi.
Damdabaca bir div imiş səkkiz başlı, qocaman,
Hər bir kəs ki, dindar olmaz, onu yeyər, – deyərdi.

Göy guruldar, şimşək çaxar ifritələr yerində,
Ac yalquzaq gözü sanki qaranlıqda göyərmiş.
Azanda, div çöldə qalan çocuqları boğazlar,
Tanrı bilməz, rahat durmaz insanları yeyərmiş...

BULUDLAR

Lermontovdan iqtibas

Ey lacivərd göylərin əbədi yolçuları,
Mirvarid zəncir kimi üfüqlər aşarsınız.
Sizdəmi mənim kimi doğma, əziz vətəndən
Qovuldunuz, onunçun cənuba qoşarsınız?

Kimdir qovan sizləri, talemi, ya qərarmı?
Və ya gizli bir həsrət, açıq bir qərəzmi var?
Yoxsa bu geniş göylər gəzməyə sizə darmı?
Genəmi axşamlarda şeytanların bəzmi var?

Yox, yox... Siz bu bəhrəsiz tarlalardan bıqdınız,
Onun üçün uzun bir yolçuluğa çıxdınız...
Yabançıdır sizlərə iztirab və ehtiras,
Siz o boşluq içində azad doğulursunuz.
Sizlər ki, mənim kimi duyamazsız kədər, yas
Nə bir vətəniniz var, nə də qovulursunuz.

1930

ACI GÜNLƏR

Ac çılpaq işçilər bütün gününü
Çalışır onlarçın alın təriylə.
Özünə borc bilmiş itin gününü
Döyüşür həyəcan zərbələriylə.
Çalışır, özü ac, ailəsi ac,
Çalışır, aldığı muzdu, haqqı nə?
Çatmayır ancaq bir yemək haqqına.
Heyf haqq verən yox, fəqət nə etsin?
Şikayət etməyə kimlərə getsin?
Yox, onun gücü var, qüdrəti də var,
Ya ölüm, ya həyat versinmi qərar?

O zaman Rusiya odlar içində
Vuruşlar içində çalxalanırdı.
Aclığın kabusu gərmişdi qanad.
Hər yanda fəlakət, hər yanda ölüm,
Hər yanda kin, zəhər saçan bir həyat.
Yoxsullar bu zülmə "yetər" demişlər,
Sürünmək ölümdən "betər" demişlər.
Ya ölüm, ya həyat budur san demək
Çar isə saraydan gülümsəyərək,
Ölüm əmri vermiş, bütün bir ölkə
Atılmış tufanlar içinə bəlkə.
Hər yerdə işçilər dalğalanaraq,
Zəncirli həyata kəsilmiş asi,
Şəhər olmuş bir inqilab yuvası,
İşçilər içində bir həyəcan var,
"Qara kütlələrin" sözünə qarşı
Böyük milyonerlər narahat olmuş,
Yerindən qopacaq sanki zavodlar,
Nökəri göründə özünə qarşı
Qızışmış hiddəti, iki qat olmuş,
Bir çox zavodlarda işlər qırılır,

Bir çox yığıncaqda mitinq qurulur.
Natiqlər coşaraq söylər azadlıq,
Bir çoxu hayqırır: haqq verin bizə!
Çox yerdə işçilər dayanır üzə.
Ah, bunu boğmağa qan lazımdır, qan,
Əcəba, varmıdır böylə bir igid
Ki etsin bu asi qəhəri sakit?
Var, əvət qüdrətli bir Nikolay var,
Hökmüylə talançı, əmriylə qəddar,
O bütün ölkəni boğmağa qadir.
Onunçun şəhərin duxanlarından
Oğru, baş kəsənlər yığılmışlardır.
Hər gecə məhəllə, dalanlarında
Yeni bir hadisə, bir lövhə vardır.
Hər gecə quldurlar, dəstə tutaraq
Kənar məhlələrə hücum edərdi,
Qarşı çıxanları buraxmazdı san,
Bütün ailəni soyub gedərdi.
Hər qatil bilirdi, çarın qoşunu
Bir cəzaya məhkum edəməz onu.
O zaman hər qaçaq bir hökmrandı,
Hər qoçu ayrıca bir qəhrəmandı.
Böylə bir şəhərdə kim baş qaldırır,
Polisdən xəbərsiz bir baş qaldırır.
Kim deməz ki, çarın valisi oğru?
İşçilər söylərkən:
Bumu çarın bizlərə
Bəxş etdiyi “ədalət”,
“Çəkilməz bu rəzalət,
Bu zülmə qarşı artıq
Bilinməz nə etməli?
Milyonların səsiylə
Yerləri titrətməli...
Onunçun toplaşmalı
“Bolşevik” firqəsinə,

Birlikdə səs verməli
Rəhbərlərin səsinə.
Bu çıxılmaz həyatdan
Onlar qurtarar bizi
Doğru yol budur bütün,
Zavodları yıxmalı
Bütün sahibkarları,
Həycanda buraxmalı.
O vəhşi alçaqlara
Ən kəskin cavab budur.
– Əvət, doğrudur.
– Yox, deyil!
– Yox, doğrudur!
Bir bolşevik hiddətlə
Atılıb çıxdı üzə
– Bu terrorçuluq sizə
Heç bir əlac verəməz.
Sahibkarlar bu işdən
Heç bir zərər görəməz.
Onlar bütün zərəri
Dövlətdən alacaqlar.
Ancaq yenə ac qalan
İşçilər olacaqlar...
Arkadaşlar, durunuz,
Başsızlıq etməyiniz.
Bolşevik yolu doğru,
Başqa yol getməyiniz.
Fəqət terroristlərin
Coşduqca coşdu qanı
“Zavodları yıxmalı...”
Səsi tutdu hər yanı.
Başlandı terrorçuluq
Fabrikada, zavodda,
Bir çox yerlər alışdı,
Məhv olub getdi odda.

“Terror” – deyə yüzlərlə
İşçiləri tutdular.
Bağlayıb əl-qolunu,
Məhbəslərə atdılar.
Milyonerlər zərəri
Bütün dövlətdən aldı,
Yenə zülm, təcavüz,
Aclıq yerində qaldı.
Günlər keçdi ölkədə
Asayiş oldu “bərpa”
Yenə sahibkarların
Evində zövq və səfa.
Yenə də köhnə damğa,
Əmirlərə vuruldu
Varlılar qalib çıxdı,
Uduzan yoxsul oldu...

MƏN DƏ AĞLAMIRAM

... Mən ki, hala bir gəncəm, ümidim var, şanım var,
Damarlarımda coşan, axan qızıl qanım var.
Madam ki, köksüm dəmir, ağlamaq, neçin, nədən?
Sürünmərəm həyatın uçurumlarında mən.
Qaldıraraq başımı indi mühitə baxdım,
Baxdım ki, sürünməyin sonu yoxdur, buraxdım.
Qapadım bir məzara öksüzlüyün daşını.
Gözlərimdən silmişəm əmirsizlik yaşını.
Əməllərimlə etdim, göz yaşına əlvida,
Qəlbimdə indi ümid, bir yüksək buludlu dağ
Önümdə görünməyir nə uçurum, nə qazıq,
Ümidsizlik içində ağlayanlara yazıq...

MƏN

Toxunma, toxunma, dərdlidir başım,
Burax, öz yarama dərman edəm mən.
Uzaqda qaldıqca torpağım, daşım,
Cənnət olsa bu dünyayı nedəm mən?..

Mənim imanım bir, eşqim, özüm bir,
Bir çeşmədən axdım, qaynar gözüm bir,
Türk oğlu Türkəm mən, mərdəm, sözüm bir,
Yol ver, yol ver, öz yurduma gedəm mən.

BİR SƏS GƏLİR UZAQDAN

Bir səs gəlir uzaqdan, o yarmı gəldi dilə,
Bir xəbərmi yollandı bu yaralı bülbülə?
Bülbül, yolun düşərsə mənim doğduğum elə,
Bu yanıq iniltimi dağlarına sal da gəl,
Qəlbimə almaq üçün qadasını al da gəl.

Mən gələrkən o yurdun mövsümü son bahardı,
Gülşəndə gül yerinə qızıl tikanlar vardı...
Durma, bülbül, bu hicran dərdli bağrımı yardı,
Get, bir an olsa da, get, sinəsində qal da gəl,
Könlümə salmaq üçün dərdlərini al da gəl.

Durma bülbül, var da qon qarlı dağlar başına,
Türkümü sal o yurdun torpağına, daşına,
Al bu göz yaşını, qat o yarın göz yaşına,
Dönərkən saçlarından bir-iki tel çal da gəl,
Solğun dodaqlarından gizli bir söz al da gəl...

TAMARA

Eşqsiz qalan bir dil kimi göz dikərək ənginə,
Gizli-gizli həsrət çəkib ağlarmıan, Tamara?
Dalıb dilib axşamların yas doğursan rənginə,
Aşıb-daşan Dəryal kimi çağlarmısan, Tamara?

Yadındamı bir baharda üz-üzə gəldik vəcdə,
Sən mənə bir eşq oxudun, etdim bu eşqə səcdə,
Səndən başqa almadım mən ilk bahardan bir müjdə,
Sən könlümü zəncirləyən bağlarmısan, Tamara?

Yadındamı mana sundun göy Borjomun suyunu,
İlk olaraq mən qucmuşdum o yüksələn boyunu,
Bir qəhrəman Şamil kimi güdsəm ölüm oyunu,
Mana imanlı bir ümid bağlarmısan, Tamara?..

SARAYLAR YIXILIRKƏN

İnqilabi şair Lahutiyə

Qasırğalar, boranlar, fırtınalar içində
İllərlə dinlədik biz acıqlı harayları,
Dəmir atları çapdıq odların qucağına,
Biz yıxdıq, biz devirdik o qanlı sarayları.
O saraylar ki, orda qanlı peymanələrdə
İçildi yoxsulların zəhərli göz yaşları,
O saraylar ki, rəngi qızıl qanla boyanmış,
İnsan kəllələrindən yaranmışdır daşları.
Biz vurarkən zərbəni cütbaşlı ağ qartala,
Bir təkanla yıxıldı onu bəsləyən yuva.
Mən bilirəm, sənin də qəlbində bir arzu var,
O yol çəkiən gözlərin uzaq bir yurda dalmış.
Ayırmış bir dünyanı ikiyə, bax bu dağlar,
Bizdə bahar açılmış, o yeri boran almış.
Mən bilirəm qoynunda qaynaşır uzaq ümman,
Üsyanların içində keçər günlər və aylar,
Mən bilirəm o titrək dodaqlarında İran,
Var onun da qoynunda yıxılmalı saraylar...

KRIMDA AXŞAMLAR

M. Müşfiqə

Enərkən qızıl günəş qoca dağlar ardına,
Baxardım heyran-heyran o dilbər təpələrdən.
Boy atınca dənizdən nazlı ay, sevdalı ay,
San busələr alırdı ləpələr ləpələrdən.

Oh, axşamlar, axşamlar, hələ dilbər axşamlar.
Gör nasıl bir yerdir ki, ellər orda axşamlar.

Sahildə yüksək bir yer, qədimdən qalma saray,
Uzaqlardan baxmağa gəlirlər burda aya,
Sərvlər arasında doğunca sevdalı ay,
Ən müqtədir bir rəssam qoy gəlsin tamaşaya.

Oh, mən də saatlarca durdum o gözəl yerdə,
Daldım şən təbiətin o dilrüba rənginə.
Düşündüm elim nerdə, Krım nerdə, mən nerdə,
Xəyalım uçdu həmən uzaqlara, ənginə...

Ay tökdükcə nurunu göy dənizin üzünə,
Sahildəki Gicginə yaldızlara batardı.
Çarpdıqca dalğacıqlar Qırlanğıcın dizinə,
Gözəl dilbər uzaqdan min bir işvə satardı.

Livadyada zövq alan bir işçinin əlindən
Çınlayan qarmon səsi əks edərkən gecəyə.
Gətirirkən xatirə bu yerin keçmişini,
Hər kəs heyran qalırdı bu dadlı bilməcəyə.

Bu sarayda bir zaman möhtəris knyazların
Əlində qan dolusu peymanələr yanardı.
Ağ qartalın eşqinə səslənirkən qədəhlər
Gecələrin qəlbinə ölüm zəhri sunardı.

Bu sarayda bir zaman... Söylədilər, dedilər.
Kinli generalların o vəhşi sinəsində,
Məsum Krım qızları zövq üçün dirildilər,
Bir hıçqırıq sönərkən boğulan nəfəsində.

Xəyala gəlirmi heç ki, haman bu sarayda,
Göy köməkli bir işçi gəlib də dincələcək?
Və ya kəndli bir yoxsul, şahların gəzindiyi
Göy sərvlər içində yatıb sərinlənəcək?

DAĞLAR SƏSLƏNİRKƏN

Ey uzaqdan gələn yolçu, böylə sapqın getmə, dur,
Çox yolçular sinəmizdə etdi çapqın, getmə dur…

Başımızdan fırtınalar gəlib keçdi, ölmədik,
Torpağımız qan udaraq daşlarımız qızardı,
Sultanlara yol vermədik, şahlara yar olmadıq,
Sinəmizdən keçən yolçu dumanlardan azardı...

Hər gün yeni bir ordu
Köksümüzdə yol açdı,
Hər gün yeni bir qartal
Qanad açdı, qol açdı.

Bir gün biri gəldi – "Mənəm bu dünyanın ağası",
Göy yaxamız beş gün oldu ancaq onun oynağı,
O qudurmuş orduların bitməz oldu qovğası,
Zirvəmizdə iz buraxdı şahinlərin caynağı.

Hər gün yeni bir tanrı
Çıxıb göründü gözə.
Şamillər cana gəldi,
Pənah gətirdi bizə.

Çox zamanlar başımızdan şahin ötdü, sar keçdi,
Çox hakimlər hökm eylədi, yaxşı, yaman bilmədi.
Ərəb gəldi, bu yerlərdən kazaklarla çar keçdi,
Lermontovun hiddətindən yaşıl Qafqas gülmədi.

Bir çoxunun taxtına
Yollar açan biz olduq.
Bir çoxunun baxtına
Ölüm saçan biz olduq…

Gələnlər keçdi getdi, torpaq qaldı, daş qaldı,
Qartallar uçdu getdi, meydan yenə boş qaldı.

Bax varmıdır onlardan zərrə nişan, bir əsər?
Nə qılınc var, nə qalxan var, nə meydan var, nə vuruş
O çarpışan orduların oynağında yel əsər,
Genə meydan bizimdir, bax, büsatımız qurulmuş.
Ey uzaqdan gələn kəs,
Qayıt getmə bu yolu.
Sən də etmə gəl həvəs,
Qəzəbimiz qorxulu.

1929, Dərbənd

DAĞLARDAN XATİRƏLƏR

M.K.Ələkbərliyə

Dün qarşımda nəvazişkar gülər üzlər oynadı,
Qəlbimdəki ümid yenə coşdu, coşdu, qaynadı,
Ətrafımda ləzgi, qomuq, avar, lak, tərəkəmə,
Oynaq gözlər, şən dodaqlar, həpsi yabançı qəmə.
Uzaqlardan uca dağlar əks edərkən gözlərə,
Çıxdıq yaşıl təpələrə, məxmər donlu düzlərə.
Al geyimli qızlarımız həpsi verib qol-qola,
Çiçək dərir düzmək üçün sapmadaydı sağ-sola.
Ormanlardan axıb gələn, qayalardan sızan su,
Göy məxmərli dərələrin sükutunu pozan su,
Səsləndikcə, qəlbimizin çırpınardı telləri.
O sevdalı al mayısın lalələri, gülləri,
Düzüldü yıldızlar kimi siyah, qıvrım saçlara.
Başlarında çələngləri bənzərdi al taclara.
Birdən-birə qarşı çıxdı min bir yıllıq yapılar,
Hala açıq durmadaydı qalın, dəmir qapılar.
Div gövdəli hasarların çıxdıq sökük başına,
Baxıb durduq tarixlərin torpağına, daşına,
Qəlbi qırıq xərabələr min bir dastan oxurdu,
Keçmişləri yad etdirən əfsanələr toxurdu.
Bir vaxt vardı zövq alardı rəzalətdən, zülmdən,
İndi bu yıxıq sütunlar xəbər verir ölümdən,
Nə xanların məclisləri, nə də şahlar divanı,
Nə də haqqa qarşı çıxan "günahkarlar" divanı,
Nə fəryadlar, iniltilər, nə zəncirli əsirlər,
Yalnız ağlar sinəsində ölüb gedən əsirlər…
Gəzib, gəzib çox dolaşdıq, qızlarımız yoruldu.
Qarşı çıxdı al ləçəkli bir təpə,
Gül-çiçəklilir təpə...
Həpsi birdən halqa vurdu. Coşğun məclis quruldu,
Çalğı coşdu, incə, şaqraq ləzginkələr vuruldu.
Oynamaqçın incə çubuq əldən-ələ atıldı,
İşvə, nazlar satıldı.

Bir ləzginkə çağırmaqda ləzgiləri “Kirə”dən,
Bir ləzginkə xəbər verir Xasavyurtdan, “Sura”dan.
Bir ləzginkə oynadırdı çeçenlərin elini,
Bir ləzginkə qabardinin xatırladır dilini…
Nazlı Günəş çəkildikcə uzaqlara, ənginə,
Boylanırdı qızıl dağlar sarımtıraq rənginə.
Dağın zümrüd yaxasından baxan kiçik aullar,
Yazın dilbər axşamından incə bir zövq alırlar.
Yalnız bircə köhnə qala düşüncəyə dalmadı,
Yorğun, ağır addımlarla bizdən uzaq qalmadı.
Arxasından dərin dərə, sərin sular axardı,
Ətəyindən iki Dərbənd bir-birinə baxardı.
Dağ başına çıxanların ilişdikcə gözləri,
İki şəhri bir-birindən seçə bilər özləri.
Gün batarkən bulaqlardan sərin sular içirdik,
Ömrümüzdən bir gün belə incə, şaqraq keçirdik.
Biz dönərkən axşam mavi kömləgini geyirdi,
Uzaqlardan dağlar bizə dik başını əyirdi…

LƏZGİ ELLƏRİNDƏ

Gülşən üçün

Mən ömrümdə görməmişdim ləzgilərin elini,
Durmamışdım uca, qarlı dağların dik başında.
Şarabanla keçməmişdim coşğun çayın selini,
Çapmamışdım at üstündə Şalbuz dağın döşündə.

Dün mənə bir qoca ləzgi bir hekayət söylədi,
Bu ellərin dilə gəlməz ən həqiqi şanından.
Qartalların ölkəsindən min bir misal dinlədim,
Sönməyən bir atəş duydum coşğun ləzgi qanından.

Köhnə dünya bu yerlərdən atıb getmiş kürkünü,
Bağrı yanıq minarələr son mahnını bəstələr,
Hətta qoca ləzgi atmış xəncərini, börkünü,
Bu dağlardan ötüb gələr al ləçəkli dəstələr.

Yalnız mənim sevgilimin mahnısını dinləyir,
Bu yerlərdə köhnə həyat can çəkişir, inləyir.
Coşğun çatlar aşıb-daşır, torpaqlra qan verir,
Uca dağlar diyarına inci səpər, can verir,
Gözəl bulaq tel-tel olur göy çəmənlər içində,
Traktorlar bəzənirkən yasəmənlər içində.

Seyr edincə dağ döşündə o dilrüba Axtını,
Damarında sevdalı bir şair qanı qaynadı.
Mən o yerdə buldum yalnız qəlbimin şən baxtını,
Gənclik eşqi canlananda könül tel-tel oynadı.

Adlayınca dərələrdən, təpələrdən at üstdə,
Mən o gündən bu yerlərdə başqa bir hal görmüşəm.
Səhər, axşam göz yetirib bu ixtiyar dağlara,
Şən, bəxtiyar dağlara,
Zəncirləyib ürəyimi bu ellərə vermişəm.
Onunçundur könül sevir aşıb-daşıb, coşmağı,
Qarlı dağlar aşmağı…

BOĞULMAYAN BİR SƏS

Dağıstandan annəmə məktub

Deyirlər mənə ki, genə hər axşam,
O titrək əllərin razi-niyazda.
Bilirəm yolumu gözlədiyini,
Mən gələ bilmədim sənə bu yaz da…

Deyirlər hər sabah alnın möhürdə,
Genə yalvarırsan Rəsulillaha…
Bir şey ummayıb bu dilsiz dəhrdə,
Ümid bağlamışsan böyük Allaha…
Baxırsan daima sağır göylərə,
Dərdi dərdin kimi ağır göylərə.
Bəzən qulaq verib əzan səsinə,
Dəyişir büsbütün o bət-bənizin,
Üz tutub məscidin minarəsinə
Köhnə səcdəgahda bükülür dizin…
Əks edər mehraba sönük bir nida,
Can verib durursan düşdügün oda.

Bəzən üz çevirib qara Kəbəyə,
Oxursan əsrinin son duasını.
Bəlkə də keçən gün dönəcək deyə,
Unutmazsan onun əlvidasını.
Qaşların altından baxıb şimala,
Ağlarsan yurdunun düşdüyü hala…

Bəzən kipriyində iki damla yaş,
Çıxarsan o tozlu yollar üstünə.
Qəlbində çırpınar gizli bir təlaş,
Derlər ki, bir dua oxursan mənə,
Titrək dodaqlarla məni anarsan,
Yanarsan, yanarsan, annə, yanarsan…

Lakin mənim düşdügüm fırtınalar, boranlar,
Mehrablarda əks edən dualardan nə anlar?
Əsrlərlə izlənən o qaranlıq, əski yol,
Çıxarmadı bizləri bir nicata, əmin ol.
Nə çıxdı türbəsindən tapındığın məbədin?

Mən anlamaq istəməm nə məzhəb, nə yol, nə din,
Mənim yalnız ümidim Türk qəlbi, iradəsi,
Mənim yalnız tutduğum millətimin haqq səsi.
Mən yalnız iman etdim qollarımın zorona,
Bu zor məni qurtarıb, çıxaracaq yarına
Dağları titrədirkən qəlbimin daşan kini,
Eh, sən ki bilməzsən bu gənc qəlbimdəkini…
Mən atmışam o köhnə, əski görkümü, annə,
Dinləsənə uzaqdan coşan türkümü, annə!

1930, Şamilqala

MƏNİM TÜRKÜM

Aşiqəm, cismim əgər buzlu cəhənnəmdə yana,
Daşımaz qorxulu dağlar bu tükənməz yasımı…
Gör mələklər verələr cənnəti-əlayi mana,
Söylərəm: istəməm ol cənnəti, ver Qafqasımı!

Qafqasın eşqi bütün zər dolu dünyaya dəgər,
Desələr yurdu unut, al "Yeni dünya"yı* əgər,
Söylərəm, eşqimi ver, haqqımı ver, yurdumu ver,
Dinləsin qoy bütün aləm bu boğulmaz səsimi!

1930, Şamilqala

---

* *"Yeni dünya"* dedikdə, şair kommunizmi nəzərdə tutur.

KOPET DAĞLARI*

Mən sana gəlmişəm uzaq bir eldən,
Məni də sinənə al, Kopet dağlar!
Bu odlu qəlbimdə daşqın arzu var,
Gəl mənə bir laylay çal, Kopet dağlar!

Hər yanın bir çeşmə, göy çəmən, çayır…
Artıq mən nə yazım təsvirə dair
Gəlmiş hüzuruna əsir bir şair,
Sevgimi qəlbinə sal, Kopet dağlar!

Bir xatirat deyə qalsın dərində,
Adımı əks etdir dərələrində,
Mən gedər olsam da, sən öz yerində
Əsrlər boyunca qal, Kopet dağlar!..

---

* *Kopet dağları* – Aşqabad şəhərinin yaxınlığındadır.

YARALI OLMASAYDI

Kim ovçu niyyətiylə gəzərdi bu dağları
Sinəsində can alan maralı olmasaydı?
Kim şair həsrətiylə süzərdi bu dağları,
İçindən qəlbi qırıq, yaralı olmasaydı.

Of… Duman çökdü yenə bu könül dağlarına,
Kim gətirmiş adımı solğun dodaqlarına?
Kim düşərdi həyatın görünməz ahlarına,
Bu könül o könüldən aralı olmasaydı?

Kim məni saldı bilməm dayanılmaz bu dərdə,
Nerdə mənim öz yuvam, öz elim, günüm nerdə?
Anam məni doğurub yaşatmasaydı orda,
Ya içimdəki bülbül oralı olmasaydı…

1931, Aşqabad

AMUDƏRYA

Amudərya, məni al,
O cəsur dağların qoynuna sal!
Amudərya, dinlə,
Mən sənin dərdinlə,
Gənc ikən çəkmədəyəm hicr ilə yas,
Amudərya, məni al, bağrına bas…

Gəl ovut tüğyanımı,
Sən duyarsan ki, mənim üsyanımı.
Mən dedim ki, dəli, coşğun Xəzərə,
Get qucaqlaş və yar ol,
Mən dedim ölkələri
Güldürən bir bahar ol.

Demədim Buzlu Şimal istəginə
Uyaraq,
Bizdən uzaq
Bir yerə dol.

Sərtiəsən qanlı Şimal,
Səni də etdimi qul?
Kəsərək yollarını,
Bağlayıb qollarını
Səni də etdi kölə?

Amudərya, niyə bəs
Verməyirsən mənə səs?
Ya neçin dalğaların gəlməyir üsyanla dilə?
Söylə göz yaşları, qan selləri boğmuşmu səni?
Qoca Şərq dağları qan udmağa doğmuşmu səni?
Yox, yox artıq döndər
O quduz sellərini,
Boyasın al qana, ya al çiçəyə
Doğma türk ellərini!

Atılıb fırtınadan-fırtınaya.
Çeynə zəncirini qır,
Sənə ən doğruca yol, iştə, budur!..
Daşaraq,
Qanlı atəşlərlə dırnaqlaşaraq…
Yaşamaq
İstər isən, al sana haqq!
Böylə lal axma, sükutdan doğamaz istiqlal!
Bu axşam istəməm olsun cansız,
Bir əməl parlayamaz qurbansız,
Amudərya, məni al,
O cəsur dalğaların qoynuna sal.
Burax, alsın məni ruzgar ölümə,
Boğaraq eşqimi qan,
Olayım mən qurban.
Və qanımdan qataraq sellərinə,
Ax bu türk ellərinə…
Bəlkə bir gün yaşayır bir ideal,
Bəlkə bir gün boy atar istiqlal…
Yenə qoy hökm eləsin türk ağzı,
Oğuzun yazdığı fərman kağızı!
Amudərya, məni al,
Qopacaq fırtınanın qoynuna sal.
Sən burax düşmanı girsin qanıma,
Qana girmək yaraşır öz şanıma,
Bəs nədən qorxu duyub, hürküm mən?
Atamın oğlu, igid türkəm mən!...

1932, Aşqabad

BÖYÜK ŞƏHİDİMİZƏ

Münir Kari üçün

Özün bir nur ikən “qanlı ulduzun”
Zülmət olduğunu qandın dedilər…
Türk üçün yaranmış bu qoca Şərqə,
Yeni bir gün doğar sandın, dedilər.

Göz dikib qaralan dağlar ardına,
Baxıb qəribsədin doğma yurduna,
Ürəkdən qızaraq “Şimal qurdu”na
Altun orduları andın, dedilər.

Vətən bir çıraqdı, sən bir pərvanə,
Dolanıb başına qıyardın cana,
Bilmədinmi düşər yurd sevən qana?
Sən də millət üçün yandın, dedilər…

Qoyaraq millətin qəlbini dağlı,
Düzdülər qurşuna qolları bağlı,
Altay qəhrəmanı, Türküstan oğlu,
Dünyaya dəyər bir candın, dedilər.

“PRAVDA VOSTOKA”YA

Yadındamı, on il əvvəl doğulduğun zamanlar,
O zamanlar sənin səsin böylə şaqraq deyildi.
Silindikcə üfüqlərdən qara sislər, dumanlar,
Bizə qarşı çıxan düşmən qüvvətinlə əyildi.

Əks etdikcə gurlu səsin obalara, yurdlara,
Dalğalanan tarlalarda ağ qozalar can aldı.
Amansız bir zərbə vurdun “sağ”, “sol” güdən qurdlara
Yayıldıqca yarpaqların Şura Şərqi şan aldı.

…On il əvvəl oxuduğun mahnı bizim marşımız,
Bu marş ilə on yaşını sevinclə etdim tamam.
Sən gənc Şərqin günəşisən, işıqları qarşımız
Bitirdiyin on yaşına “Zəhmət”imizdən salam.

HANI?

Axşam olur, quşlar dönər yuvaya
Mənim dönüb qonacağım dal* hanı?
Sabah olur çoban enər obaya
Mənim qalxıb-enəcəyim yol hanı?

Yaz gəlincə dağlar duman quşanır,
Dərələrdən sellər axır, boşanır,
Könlüm deyir onsuz nasıl yaşanır?
Söylər – mənim doğulduğum el hanı?

Həsrət qalıb baharına, qışına,
Sordum onu uçub gələn quşuna,
Baxma, dostum, gözlərimin yaşına,
Məni ondan ayıracaq qol hanı?

---

* *Dal* – budaq.

QƏRİB QUŞUMA

Qərib quşum, bu gəlişin nerədən,
Uçub gəldin hansı dağdan, dərədən.
Mən anlamam köksündəki yaradan,
Bihudədir, məndə məlhəm arama,
Məlhəm olsa, qoyaram öz yarama…

Hansı cəllad o köksünü dişləyən,
Əski bir yaramı öylə işləyən?
O səs nə, içində dərdə başlayan?
Beyhude dinlətmə mana nəvanı,
Mən nə bilim kimlər yaxmış yuvanı…

Kim dost ola, yarana kim ilişə?
Bir eş bulsam, bu dərdimi bölüşə.
Gəl aldanma üzümdəki gülüşə,
Dal ruhuma, keçirdiyim anı gör,
Gir qəlbimə, içdən axan qanı gör…



Ey Azəri türk... Ey vətəndaşım...

Sənin qarət olunmuş haqqından doğan daşqınlığına tərcüman olayım deyə hayqırdım... Nə yazıq ki, bu hayqırış sonunda qırıq-tökük çıxan hıçqırıqlarımdan ibarət boğuq bir səs oldu...

Ah... Bu səsdə belə səni, həm sənin eşqini, həsrətini, qəribliyini azacıq da olsa yaşada bildimsə, nə mutlu mana!..

Azərbaycanlı
Almas Yıldırım, 1936.

İRAN QIZI

Qırlarda* ney səsiylə başlayır axşam,
Dalar maviliklərə saralan əngin.
Gözəl qız, o gül üzün nə qədər rəngin?
Eh, olsaydım mən də bir nəşəli Xəyyam,
İlahi bir eşqlə gələrək vəcdə,
Edərdim can alan gözlərə səcdə…

Parlayır Xorasanın altun qübbəsi…
Beş günlük ömrünüz var, san gəlir ölüm.
Qaldır üzündən qara hicabı, gülüm,
Dinləmə gəl o qəmli, boğulmuş səsi,
Çıx buludlar içindən qalma örtülü,
Solmasın sinəndəki Təbrizin gülü…

---

* *Qır* – çöl, səhra, düzən.

Axşam minarələrdən verilir əzan,
Gözlərində parıldar mirvari yaşlar,
Söylə, neçin çatılmış o qələm qaşlar?
Tüğyan edən dərdini yoxmudur yazan?
Baxıb dalğın gözlərə dağılır huşum,
Söylə, gözəl şəhriyar, nədən sərxoşam?

Mən ki, çoxdan içmədim Qafqaz şərabı,
Ya neçin dönər başım, axar gözlərim,
Sən keçdiyin yollara baxar gözlərim,
Çarşaf altından bəzən edib savabı,
Göstərirsən ay kimi o gül üzünü,
Salırsan xəyalıma Odlar Qızını.

Bir zamanlar mənim də yaşıl Qafqasda
Sənə oxşar nazənin bir eşim vardı,
Səsindən Kür coşardı, Araz çağlardı,
Derlər ki, indi qalmış ələmdə, yasda
Baxar qəribsəyərək doğma yurduna,
Göndər salamını sən dağlar ardına…

Yol uzun, əməl uzaq, ömrümüz qısa,
Bir gülü çox gördülər bizə dünyada,
Gözəl qız, ver içəyim coşğun bir badə,
Kim bilir bəlkə dönməm bir də Qafqasa,
Gəl sən mana öylə bir təskinlik ver ki,
Oxuyayım yurduma dair bir türkü…

1933, Məşhəd

BİR PARÇA

Lənət əşarıma, həm sözlərimə,
Ey vətən, gəl də görün gözlərimə!
Gəl görün, doğsun həyatımda şafaq,
Mən vətənsizmi doğuldum? Bu nə haqq?..

1934

AZƏRİN* DUASI

Həsrət qalıb doğma yurdun nazlı müşfiq qucağına,
Gözlər yaşlı, boyun bükük, vətənsizmi öləcəyəm?
Göz dikərək yad ellərin şəfa verməz ocağına,
Böylə qərib, bir parçacıq kəfənsizmi öləcəyəm?

Ulu Tanrım… Günahmı bu, bahar gəldi, mən çağladım
Bu bir elin diləyidir, yad bir sözə uyduğum yox.
Dünya sevdi, mən də sevdim, ellər güldü, mən ağladım.
Sevdim, amma dizlərinə bir dəfə də baş qoyduğum yox.

Tanrım! Mana çoxmu gördün od sovuran torpağımı?
Cənnət sənin, Kəbə sənin, bir məzarlıq yurdumu ver!
Cəhənnəmdən alsın burax dünya mənim sorağımı,
Mənə yalnız bir içim su, baş qoyacaq bir az da yer.

1934, Təbriz

---

* Şairin oğlunun adıdır, hal-hazırda İstanbulda yaşayır.

GÖLCÜKLƏ* HƏSBİ-HAL

Dalğın mavi göz kimi dərd andıran dalğalar,
Coşduqca könül coşar, durma, amandır, Gölcük!
Çoxdan bəri qəlbimin telləri oynamadı,
Dərdim başımdan aşqın, halım yamandır, Gölcük!

Aç qoynunu, uzaqdan gəlmişəm, çox yaslıyam,
Eli, yurdu çalınmış** bir qərib Qafqaslıyam,
Zənn etmə ki, yoxsulam, Kürlüyəm, Arazlıyam,
Bakıdan ayrılalı yaxın zamandır, Gölcük!

Dolaşıb Türküstanı, İranı addım-addım.
Qəlbimi oxşayacaq bir beldə*** bulamadım.
Səndəmi əks edəcək bilməm ki, indi yadım,
Könül özgə bir aşqa bəlkə düşmandır, Gölcük!

Yolsuz bir aşiq kimi sanma ki, səni buldum,
Mən uzaq bir "Göygöl"ün yolunda böylə soldum.
Bu doğrudur, bir dostun uğrunda qurban oldum,
Bu bizim etdiyimiz əhdi-peymandır, Gölcük!

Eh… hər bir aşinanın, hər bir dostun işi bu,
Kimsədə yoxdur günah, dünyanın gedişi bu,
Mənim də ilk eşqimin fırtınalı qışı bu,
Könlümdə yalnız qalan kəskin imandır, Gölcük!..

---

* *Gölcük* – Elazığ ilqəsində bir gölün adıdır.
** *Çalınmışam* – qarət olunmuş, oğurlanmış.
*** *Beldə* – (ərəbcə bələd) şəhər.

MƏNİM PROTESTOM

Cəmiyyəti Əqvama açıq məktub

Dinlə, sən ey haqq deyə zülmə eş olan yuva,
Bir millətin fərdiyim, mənim də bir səsim var.
Dağları al qanımla boyanmış bir ölkədə
Anlasan yaşamaqçın nə qədər həvəsim var…

Onun "rus" dediyi yer torpağımdır, daşımdır,
Onun başındakı tac mənim dövlət quşumdur.
Jenevdə sunduğu mey, o mənim göz yaşımdır,
Eh, bilsəydin başımda nə bəlam, nə yaşım var.

Bakı… O mənim Kəbəm, o mehrabım, o yurdum,
Yolunda qanlı çara illərcə qarşı durdum.
Rus zəncirini ilkin mən çeynədim, mən qırdım,
Dünyaya müjdə yazdım: azad bir Qafqasım var…

Bir gün bir "dost" göründü, bizə bir badə sundu,
Sundu da, başımıza "tülkü" getdi, "qurd" qondu.
Yandı əməlim, eşqim, vətənim, oda yandı…
Ortada qan, püxtə leş, atəş, kül, duman qaldı.

Tfu… tarixə tfu… tərsinəmi dolandı?
Ölkəmiz parçalandı, bağrına od qalandı,
Millətlərin naminə zəngin ellər talandı.
Dağlara əks edən səs: yalnız ah, aman qaldı…

Artıq o nazlı eldə tütəcək bir ocaq yox,
Annələrin göz yaşı azmayan bir bucaq yox,
Eyvah ki, baş qoyacaq nə bir diz, nə qucaq yox,
Anladıq ki, dünyada yaxşı yox, yaman qaldı…

Dinlə, sən ey dünyanın haqq arayan dik başı,
O bir vəhşi hökmdar, içdigi qan mənimdir.
Bir quldur bir zənginin olurmu arxadaşı?
Sana bir can verirsə, əlbət o can mənimdir.

Mənimdir o saçdığı altun, para, çalınmış…
Məclisdə haqqım diyor, o haqq məndən alınmış,
"Moskov" deyib keçməyin, ayaqlara salınmış,
Varı-yoxu talanmış Azərbaycan mənimdir.

Dünya bilir bu haqqı, neçin nədən danılır?
Onun çapqın olduğu həp içindən tanınır.
Millətlərin düşməni bir dövlətmi sanılır?
Ona qarşı hər zaman kəskin üsyan mənimdi

Dinlə, sən ey cahana haqqı göstərən masa,
Dağıstanlı, gürcülü hakim bizik Qafqasa.
Aləmə xəbər olsun, o gər bizim olmasa,
Yolunda töküləcək son damla qan mənimdir.

Verin mənə yurdumu olsun cənnət bucağı,
Bir dövlət qurayım ki, sülhün doğma ocağı.
Başında dalğalansa üç boyalı bayrağı,
O zaman zənn edərəm bütün cahan mənimdir.

Buraxın qoca Şərqi bir az da yaşasın hürr,
Yetər ki, əsrlərin altında oldu əsir,
Dünya istiqlal deyir, bu onun da haqqıdır.
Bu uğurda yenilməz qüvvət, iman mənimdir.

Buraxın parçalansın zülmün haqsız yapısı,
Silinsin yer üzündən kommunizmin kabusu,
Millətlərə açılsın öz yurdumun qapısı,
İnsanlara hürriyyət! Bu dilək, şan mənimdir!!

1934, Elazığ

MURADI KEÇƏRKƏN…

Axıyor dalğaların hər dərədən,
Bu yürüş hökmünü aldın nerədən?
Ağ kəfən örtülü dağlardanmı?
Sana qan udduracaq vəhşi dodaqlardanmı?
Dur, Murad, dur,
Yetər axdın dəlicə,
O nə çöhrəndəki qan?
Bir gülüş uğruna bir eşqi yıxan,
Dəli bir qəlbin o bir işvəsimi?
Gəl Murad, boğma mənim gur səsimi.
Dur, Murad, dur ki, qudurdun, azdın,
Sən mənim qətlimə fərman yazdın.
Gəl Murad, gəl də dəyişdir bu yolu,
Olma zalim fələyin əmrinə ram.
Bu yolun ən sonu dəhşətlə, fəlakətlə dolu,
Məni boğmaqsa məram,
Gəl qopar qəlbimi vur daşlara, vur,
Yeni qurban sanaraq inlə, qudur…
Lakin əfsus, nə yazıq, keçdi keçən,
Canlı bir tel qoparıb almaq üçün qəlbimdən,
Şimdi yox səndə hünər
Nə yazıq, kedi keçən…
Şimdi mən
Nə sənin sandığın aciz biriyəm,
Nə kərəmlər kimi bir sərsəriyəm.
Ki düşüb yalvarayım dizlərinə,
Yox,yox, artıq o riyalar dolu
Durğun görünən gözlərinə.
Aldanıb girməm, o bir qınlı tuzaq,
Nə yazıq, keçdi keçən, qaldın uzaq…
Dur dedim,
Durma, sən istərsə qudur…
Al da bas bağrına buz çöllərini,
Topla gəl dağların ağ sellərini,
Qapla dur sağ-solumu;

Nə yazıq, sən kəsəməzsən yolumu.
Nə yazıq, keçdi keçən…
Şimdi mən,
Fırtınalardan dəli bir zövqə dalan,
Dalğalardan güc alan,
Qan, ataş, dalğa, boran oynağı bir şanlı quşum.
Mana qan içməyi əmr etdi bu gün hayqırışım.
Çünki qan içməyən haqq almayacaq,
Aciz olsam, mana yer qalmayacaq.
Baxma könlümdə bu gün bir sıra yaslar yaşayır,
O böyük Kürlər, Arazlar daşıyır.

Aprel 1935, Karakoçan

BATAN GÜNƏŞ

Sən beynimdə doğan qığılcımdan od aldın,
Ey ruhumu, eşqimi yetim buraxan günəş,
Sən gedəli ömrümə fırtınalar oldu eş…

Nerdə, hanki bir üfqün dərinligində qaldın,
Bu doğrumu qəlbimi dondurdu bir buzlu əl,
Ya bu nədir könlümə saplanıb qalan əməl?..

Aşiqlərin bir daha səni bulmasın deyə,
Bu doğrumu keçdigin yerləri yıxdı, yaxdı,
Ya bu nə, arxan sıra qanlı izlər buraxdı?..

Deyirlər ki, varlığın qarışdı bir kölgəyə,
Bəs bu nə, məhbus kimi içimdə çırpınan can,
Sənmisən, qərib Vətən, sənmisən Azərbaycan?

1935, Karakoçan – Elazığ

QAFQAS

Bir zamanlar Puşkinin dindirib ələmini,
Ona mənfa* yerində gözəl bir cənnət oldun.
Sevincindən az qaldı qırsın da qələmini,
O bir hakim rus kimi coşdu, sən dərdə doldun.

Bir zamanlar söylədi, qürurla gəldi vəcdə,
"Qafqas altımdadır, mən üzərindəyəm" – dedi.
Kazbekin dik başından sana edərək səcdə,
Qopardığın ahları bir sevinclə dinlədi.

Mən nə bir Lermontovam, nə bir qadir Puşkinəm
Ki, bir rus qələmiylə mədh eləyəm ədanı.
Mən yalnız yaranmışam almaq üçün qadanı.

Qəlbimdə "vəhşi" deyə çeçenlərə yox kinim,
Azəri, gürcü, dağlı bir ruh deyə anmışam,
Mən yalnız sənin üçün ölməyə yaranmışam.

1935, Karakoçan / Elazığ

---

* *Mənfa* – sürgün.

SUSUN

Dedi-qodu yayanlara

Yürüyürük, yolumuz tikan, çala, dağ, dərə,
Qəlbimiz alov aldı bir sönməz ehtirasdan.
Yürüyürük, bu yolda qurbanlar verə-verə,
Varlığımız kül oldu düşdügümüz bu yasdan…

Susun, siz barı susun, gəlsin diləgə dağlar,
Titrəsin acılardan zəhər sunan dodaqlar.
Vətən atəşdə, qanda, Araz coşar, Kür ağlar,
Sizlər utanmadınız o talanmış Qafqasdan.

1935, Elazığ

QÜRBƏTDƏ

Mən torpağı atəşlə yoğrulan bir diyarın
Doğdum yad çəkmələrlə çeynənən yaxasında.
Ömrünü udub keçən hər qışın, hər baharın
İçində mən ağlaram yalnız onun yasında…

Basdığım hər torpağın qoy cənnət olsun üzü,
Mən onu bir an üçün tapdayıb keçəcəyəm.
Varsın da buz bağlasın hər bir çeşmənin gözü,
Mən yenə o içdiyim ağudan içəcəyəm.

Varsın hər çiçək, mana versin baharı müjdə,
Qəlbimdəki dağların getməz başından qışı.
Mən edəməm eşqimə yad bir məbədə səcdə,
Burax, getdigim yolun tufanlar olsun eşi…

Mən qürbətdə ölərsəm qəlbinə salma çilə*,
Söylə, dostlar gömməsin nəşimi torpaqlara.
Yaxaraq vücudumu kül edib verin yelə,
Bəlkə bir zərrə alsın ruzgar bizim dağlara.

Yox, mən ölmək istəməm, görmədən doğma yurdu,
Mən orda ağlamışam, mən orda güləcəyəm.
Söylə, qoy sevinməsin Kremlin vəhşi qurdu,
Mən tufanla doğuldum, tufanla öləcəyəm!..

1936, Elazığ

---

* *Çilə* – böyük dərd, əzab.

BAKI

Bir zamanlar adına eşq oxudum ellərə,
Şimdi artıq qəlbimin içində inlə, Bakı…
Uğrunda çarpışanlar qolları bağlı getdi,
Mən yanaraq kül oldum sənin dərdinlə, Bakı…

Bir gün istiqlal dedin, biz atıldıq qovğaya,
Sən bağrında qanlı bir yer açdın Moskvaya,
Kim dedi çevriləsən leş qoxan bir yuvaya?
Kim dedi bir mujikin əmrini dinlə, Bakı?

Dünyanın atəş dolu sinəsi mənəm deyə,
İlk olaraq atəşi verdin Prometeyə…
O zəncirləndi Qafa, sana can deyə-deyə,
Gömüldü könüllərə eşqi sənlə, Bakı…

Sən zümrüd bir tac ikən bizim qoca Qafqasa,
Düşmənə sevinc verdin, bizi düşürdün yasa.
Eşqimi qanla boğdu, mən dostmu deyim rusa?
Odlu köksüm qabarmış daşan bir kinlə, Bakı…

Yanarkən Səbayeldə hər axşam yaşıl mayak,
Yolumu illər ilə gözləyən annəm oyaq…
Taleyə bax, uzaqlar yaxın, yaxınlar uzaq,
Uzaq dağlar ardından gəl məni dinlə, Bakı…

25 iyul 1935, Elazığ

BİR GÜNDƏ ÖLƏN EKİZLƏR

Annələrinə
Eldəgəz və Yurdavar üçün*

Mən deyirdim ki, bir gün varıb ana yurduna,
Öpərsiniz anamın toz basan məzarını…
Özlədiyim o gündə mən ölmüş olsam, belə
Siz mənsiz gəzərdiniz Bakının Xəzərini…
Lənət olsun mənə yar olmayan bir fələkyə,
Düşmən kəsildi məndə yetişən hər diləyə...

Mən deyirdim eşqimin gül açmayan baharı,
Sizinlə feyzlənib, yetişəcək, güləcək.
Ömrümə qarğımışkən sizə gülmədi barı,
Dininə uymadığım yolsuz, imansız fələk,
Cövrünə tab edərsəm dağları dələcəyəm,
Ona bir gün əmrimi dinlədə biləcəyəm…

Artıq onlar gömüldü… Ağlama, yazıq ana,
Bu bir tale cilvəsi, çəkməli əzabını,
Bir gün hesab sorarkən hər gedən qurbanına,
Tanrı olsa da, Qaflar keçirər qəzəbini.
Ağlama… duyulmasın qürbətin çətinliyi,
Ağlama… qırılmasın qəlbimin mətinliyi.

Bir gündə iki qurban… zərrəcə tutmadım yas,
Mən bu yolsuz hökmü də yenə sərxoş dinlədim.
Ah… bir gün dönə bilsəm sənə, ey nazlı Qafqas,
Mən yalnız sənin eşqin, həsrətinlə inlədim…

---

* *Eldəgəz və Yurdavar* eldə gəzmədən, yurda varmadan: şairin bir gündə ölən zavallı uşaqlarıdır.

Bu inləyiş dünyada qəhrin ən imansızı,
Yalnız bu inləyişdir qəlbimdə açan sızı.
Başqa bir şey dinləməm, mana yurdumdan oxu,
Anlat onun eşqini, unudayım yasımı…
Sən aldırma qəlbimə saplanan bu cift* oxu,
Oxu mana ruhumu, cismimi, Qafqasımı…
Ölən öldü, ölməyən həsrətim çırpınan can,
Oxu, gözümdə tutsun doğduğum AZƏRBAYCAN…

1936, Kəban – Elazığ

* *Cift* – cüt.

MƏNMİ?..

Sormayın kimlərdənəm, haralıyam, a dostlar,
Könüldən fırtınalı, boralıyam, a dostlar,
Qızıl bir qurşun aldım, yaralıyam a dostlar,
Cövrünə tab edərsəm, dağları dələcəyəm,
Qurban qəbul edərsə, yolunda öləcəyəm…
Dəyməyin, siz dəyməyin, ta qəlbimdən dağlıyam,
Mən dünyaya ün* verən Altayların oğluyam,
O torpaqda doğmuşam, o torpağa bağlıyam.
İstəməm bir yabançı göz diksin bir daşına,
Yol ver, yol ver qonayım o dağların başına…
Ey yıllarla uzaqdan həsrətini çəkdiyim,
Uğrunda gizli-gizli göz yaşları tökdüyüm,
Nə bu, dinsiz taleyə böylə boyun bükdüyüm?
Gözümmü kor, qolumda qüvvətimmi yox mənim?
Hardasan, ey keçmişim, gəl, qəlbimə ax mənim!
Mənmiyəm Altaylarda başı göylərə dəyən?
Tarixi mənmi yazdım, tarixmi məni öyən?
Mənmiyəm indii böylə təvəkkülə baş əyən?
Hansı zalım, o mənim qollarımı bükəcək?
Hansı qüvvət, o məni zəncirlərə çəkəcək?

* *Ün* – şan, şöhrət.

ƏSİR AZƏRBAYCANIM

Nerdə məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşıyla yoğuran,
Beşiyimdə “layla balam” çağıran,
Azərbaycan, mənim baxtsız anam oy,
Neçə bir il həsrətinlə yanam, oy?..

Salam desəm, ruzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırar oy!..
Hökm etsə, bu sərsəm gediş dursa oy!..

Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adı dilimdən,
Azərbaycan, mənim eşsiz yurdum oy!..
Ölməz eşqim, içimdəki dərdim oy!

Gönlümə tək Kəbə yapdım səni mən,
Sənsiz nedəm qürbət eldə günü mən,
Sənsiz nedəm Allahı mən, dini mən,
Azərbaycan, mənim tacım, taxtım oy!
Oyanmazmı kor olası baxtım oy?!

BİLMƏM Kİ…

Oğlum Azərə

Gün gəlib ta son vədələr yetincə,
Qəhr olası bu ayrılıq bitincə,
Bağçamızda sarı bülbül ötüncə,
İstəklərim olacaqmı, bilməm ki…

Gün süslərkən alnındakı naxışı,
Mən ardınca dırmanırkən yoxuşu,
Dağlara saldığım özləmin* quşu,
Gəlib sənə çatacaqmı bilməm ki…

Qovuşarkən yurd bayrama, düyünə,
Çalxanacaq el öyünə-öyünə,
Sən erincə** gözlədiyim o günə,
Mənim ömrüm çatacaqmı, bilməm ki…

---

* *Özləm* – həsrət.
** *Erincə* – yetincə.

YURD HƏSRƏTİ

Mən yurdumu andıqca dərindən,
Qəlbim qopuyor sanki yerindən,

Yurdum… O ilahi uca Qafqas,
Vermiş mənə ilhamı əzəldən.
Sundum onun eşqiylə yürəkdən
Atəş dolu bir camı əzəldən.
Mən ruh alamam başqa gözəldən,
Eşqim!.. O ilahi uca Qafqas…

Qafqas!.. O yaşıl sinəli dağlar,
Hicran duyaraq düşdüyü yasdan,
Qaç yüz sənəlik matəmi saxlar,
Bir rəmz olaraq Kürdən, Arazdan.
Quzğun onu həsrətlə qucaqlar,
Dərdiylə coşan dalğalar ağlar…

Heyhat… Nə yazıq, bir qanadım yox,
Bir anlıq uçub dağları aşsam,
Tərlan kimi Göy Göldə dolaşsam…
Azğın pusudan bir atılan ox,
Qəlbdən vurulub yerlərə düşsəm,
Bir ləhzə o torpaqla öpüşsəm…

Torpaq, o yaşıl kölgəli torpaq,
Qoynunda məzarım da sərinlər.
Ruzgarla düşən hər sarı yarpaq,
Ruhumda coşan şarqını dinlər…

ŞƏRQİ

Öt, qumrum, öt, sən ki, məndən bəxtiyar,
Heç olmazsa, qonacaq bir yuvan var,
Sənin bu yaşıllıq, sənin bu dağlar,
Nə bir yurd həsrəti, nə sıla* dərdi…
Bunları kor fələk həp mənə verdi…

Sənin qanadın var, məndə qol qırıq,
Səndə gözəl bir səs, məndə hıçqırıq,
Sardıqca könlümü məlun ayrılıq
Qar düşmüş dağlara bənzəyir başım,
Bir bulud olmayır belə yoldaşım.

Öt, qumrum, öt, sən ki, məndən bəxtiyar,
Qanadın var, hürlüyün var, yuvan var,
Uç, mənim yerimə o dağları sar,
Səslən o yurda bir nəva şərqisi,
Hürriyyət şərqisi, yuva şərqisi…

* *Sıla* – vətən.

QURBANIN OLA BİLSƏM

Ağlama, ağlama, ey gözləri buludtlu yar,
Barı uzaqdan olsa, qadanı ala bilsəm…
Bir tərlan kimi qonsam o qar yallı dağlara,
Bir ovçu vursa, düşsəm, sinəndə qala bilsəm,
Qurbanın ola bilsəm…

Yenə yaşlar göründü o dalğın gözlərində,
Bir qurbanmı gedən var o buz dənizlərində?
İllər boyu bir bahar görməyən düzlərində,
Gül kimi açılsam da, gül kimi sola bilsəm,
Mən sənin ola bilsəm…

Dün bir yaralı durna bir xəbər verdi acı,
Dedi: “Dağların issız, yox qumrusu, turacı”
Bir dərdə düşmüşsən ki, bulunmazmış əlacı…
O dərdinə bir məlhəm, dir dərman bula bilsəm,
Mən sənə gələ bilsəm…

QUZĞUN ÜÇÜN

Bir zamanlar vəcdə gəldim coşğun səsindən,
Dinlədikcə dərdlərini sarıldım saza.
İlham alıb dalğaların kişnəməsindən,
Diyar-diyar sürükləndim dərd yaza-yaza…
İçimdəki dərin sızı yadınmı, Quzğun?
Dodağımda donub qalan adınmı, Quzğun?

Söylə, sənə nədən "Dəli Xəzər" demişlər?
Kor taleyin əldən-ələ gəzər demişlər,
Səni sevən öz canından bezər demişlər?
Yetməz oldu yollara göz dikdiyim, Quzğun,
Bitməzmi bu kor fələkdən çəkdiyim, Quzğun?

Söylə nədir üzündəki o qızıl ləkə?
Qanmı verdi yarasından qucduğun ölkə?
Xəyalınmı gözlərimdə bu mavi kölgə?
Ey uzaqdan qadasını aldığım Quzğun,
Gur səsini dost elinə saldığım Quzğun..

SILAYA* VARACAĞAM

Yol ver, çəkil önümdən, ey yolumu kəsən dağ,
Gün gəldi, yetər artıq, sılaya varacağım…
Al məni qoynuna, ey Doğuya axan irmaq,
Mən də axıb o dərdli torpağı saracağım…

Yetər artıq, çox oldu qürbət eldə qaldığım,
Ayrılıq sitəmiylə qıvrılıb bunaldığım,
Çıx, görün gözlərimə, ey qadasın aldığım,
Fərhad kimi yolunda dağları yaracağım…

Yağı öldü sanmasın aldığım bu yapadan,
Min kərə böylə çıxdım fırtınadan, boradan,
Gün gələr qaldıraraq bu dağları aradan,
Çevrəndəki zənciri yenə mən qıracağam…

Kim deyər ki, könüldə xatirən yox, yadın yox,
Lənət o şerimə ki, onda sənin adın yox,
Sanma ki, könüllərdə qərib bir fəryadın yox,
Mən sənə çatmaq üçün səni çağıracağam.

---

* *Sıla* – vətən

BİR GÜN

Sanma getməz başımdan bu kəşvətli buludlar,
Şimşək olub üfüqdən yenə çaxacağam mən.
Gözləri uzaq yolu bəkləyən nişanlıya
Zəfərlərdən rəng alan bir gül taxacağam mən.

Toxunma gəl başıma qonan dövlət quşuna,
Burax məni götürsün bir əməl savaşına,
Bir gün çıxıb Kazbekin o məğrur, dik başına,
O qəhrəman ellərə şanla baxacağam mən.

Söyləyiniz yurdumu çeynəyən amansıza,
Dəyməsin o telləri pərişan duran qıza.
Bir gün könül tapşırıb dağ devirən bir hıza*,
Coşğun nəhrlər kimi orda axacağam mən.

Ordadır həm varlığım, beşiyim, məzarım da,
Ordadır gəncliyim də, eşqim də, baharım da,
Hələ titrəyir adı solğun dodaqlarımda,
Kəndimi atəşində bir gün yaxacağam mən…

---

* *Hız* – güc, sürət.

NEYLƏYİM

Keçdi bahar, bitdi güz*, o dağları qış aldı,
Dost elindən bir xəbər almadım, neyləyim?
Baxıb, baxıb yollara gözlərimi yaş aldı,
Mən o elin yolçusu olmadım, neyləyim?

Gəzib, gəzib dolaşdım, dünyanı sərxoş kimi,
Yox olası yad eldə hər yer mənə boş kimi…
Çırpınaraq didildim yaralı bir quş kimi,
Dincələcək bir yuva bulamadım, neyləyim?

Ah, o vətən, o yurdum… Eşsiz, cənnət bir ölkə,
Onsuz böylə yaşamaq, məncə, iyrənc bir ləkə,
Onsuz din bir əfsanə, onsuz Tanrı bir kölgə
Onsuz xilqətdən ilham alamadım, neyləyim?

Verin mənə yurdumu, qaya olsun, dağ olsun,
Ayaqlarımda zəncir, düşdüyüm bir ağ** olsun,
Mən ölürsəm yolunda, sevənləri sağ olsun,
Üzümü torpağına sürəmədim, neyləyim?
Gəlib yaşıl qoynuna girəmədim, neyləyim?

---

* *Güz* – payız.
** *Ağ* – tor.

A DOST

Gülşən yapdım, güllərini yel aldı,
Bir tək qönçəsini dərmədim, a dost!
Bir bağça saldırdım, gəldi sel aldı,
Bircə meyvəsini görmədim, a dost!

Dosta bel bağladım, tuzağa düşdüm,
Cananə can dedim, uzağa düşdüm,
Əfsunlanmış qızıl bir ağa düşdüm,
Birlik diləyinə ermədim, a dost!

Mən baxarkən o sevdiyim Doğuya*,
Sən ortaq ol bu içdiyim ağuya,
Orda bir gəlin var, qaldı yağıya,
Onu bir doyunca sarmadım, a dost!

Bu çarpan qəlb onun, bu tək can onun,
Damarlarımdakı axan qan onun,
Könlümü coşduran bu iman onun,
Mən özgəyə könül vermədim, a dost…

* *Doğu* – Şərq.

ÖLMƏKMİ, YAŞAMAQMI?

Bir an susmaq sərin torpaq altında,
Qurtulmaq bu ağır, sonsuz zillətdən.
Zormu əcəb Əzrayılın pəncəsi,
Daüsilla* denən bu güc illətdən?..
Kim dayanar bu içilməz ağuya,
Tanrım onu verməsin bir yağıya?..

Vərəm olsa, hökmünü tez bildirir,
Əcəl gəlir solğun üzü güldürür,
İyirmi ildir nə bitər, nə öldürür,
Cigərlərdən qopan ah da qalmadı…
Üz tutacaq bir dərgah da qalmadı…

Sən istəsən yan əriyə-əriyə,
Bir gül umsan, bahar dönər geriyə,
İllər keçər, yol yetişməz yarıya,
Bir sarabmı mənim ümid sandığım,
O əməlin inamıyla yandığım?..

Zaman qısır, dadsız ömür bitmiyor,
Dəvət üçün ölümə əl getmiyor,
Tək bir qurşun, yoxsa namə yetmiyor,
Ölməkmi… Ya ümidə bel bağlasam,
Yurdum üçün bir az daha ağlasam?

---

* *Daüsilla* – vətən həsrəti.

* * *

Derlər orda bir cənnət var,
Sevda sunar mələklər,
Öz yurdunu qeyb etmiş bir
Şair ordan nə bəklər?

Derlər orda yoxmuş ölüm
Zəmzəm suyu içincə,
Tanrım! Mənə sən ölüm ver,
Qaf dağından keçincə.

Derlər orda nə bir vətən,
Nə hicran var, nə də kam,
Mənə xoşdur qürbət eldə
Vətən hicriylə yansam…

QÜRBƏT MƏKTUBLARI

*Oradakı Həmşirəmə**

Çoxdan oldu almadım,
Bacım, səndən nə bir məktub, nə soraq,
Bilsəm nə qədər dərindən özləmim,
Gözlərimdə bilsən necə titrəyir,
O söyüdlü, o şam qoxulu torpaq.
Hələ bizim o vişnəli bağçamız,
O mənim nar ağacım,
Yerində dururmu, bacım?
Hanı bəs, sən bu yaz mənə
Nişanlımın işlədiyi,
Göz yaşlarıyla öpüb gümüşlədiyi,
Mavi, ipək bir məndil** yollayacaqdın?
Çox gözlədim, yay keçdi,
Qış da bitdi,
Bahar gəldi, badamlar çiçək açdı,
Hələ səndən xəbər yox,
Harda mənim ipək, mavi məndilim?
Hələ gələcək deyə,
Boynumu əyə-əyə
İllərlə göz yaşlarımı qurudan,
Qürbət qoxulu məndilimi qoxlaram.
Mənim bircik bacım,
Dinlə, sana anlatayım qürbəti,
Qəhr olası, çəkilməyən nazı var,
Qürbət dedikləri issız bir ada,
Dörd tərəfi ucsuz-bucaqsız dəniz,
Sahillərində yalnız,

---

* Şairin bacısı Sonanı o illər nadan bir şəxs, "bu satqının bacısıdır" deyə nişan vermişdir. Bu nahaq tənədən sarsılan Sonanın başına hava gəlmiş, qardaşının yad gözlərdən səylə qoruduğu məktublarını yandırmış, şüuru durulmadan vəfat etmişdir.

** *Məndil* – yaylıq.

Qayalara çarpan suların səsi,
Bir də qərib martıların* şərqisi…
Burda nə ana səsi,
Nə də sənin səsin var,
Nə də o qara gözlü nişanlımın nəğməsi,
Eşq nə, sevgi nə,
Bilməz bu dağlar.
Bir qəribin üzünə
Baxıb gülməz bu dağlar…

* *Martı* – qağayı.

LƏNƏT ŞAİRLİYİMƏ

Durma, gözəl sevgilim, oxşa məni, sev məni,
Çoxdan bəridir ki, mən bir gülüşə möhtacım…
Doğdum, doğalı sardı qızıl bir alov məni,
Harda yaşıl diləyim, harda mənim amacım*.
Neyləyim, fələk məni məhkum etmiş qürbətə,
Lənət olsun sunduğu ağu dolu şərbətə…

Mən bilirəm bu yolun yox ucu, yox bucağı,
Otuz beş bahar keçdi, otuz beş qışa düşdüm,
Tərk edəli o dilbər, o sevdalı qucağı,
Çəkənlər bilir ancaq, nə zalim işə düşdüm.

İnsana Ən müqəddəs səadət, uca dilək,
Sevgililər yanında, doğduğu yerdə ölmək.

Yad yer ancaq qəm çilər bir aşiqin içinə,
Dörd çevrə gülşən olsa, istəməm mən özgə yer.
Bir daşını dəgişməm Misirə, Hində, Çinə,
Tanrı cənnəti versə, mən deyərəm, onu ver.

Cəhənnəm olsa belə, mana öz yurdum gərək,
Atılaram qoynuna sevinərək, gülərək.

Orda bir qaya olsam, yaslansa** yar kölgəmə,
Onsuz burda şöhrəti, şairliyi nedəm mən?
Annəm məni doğarkən qurban demiş ölkəmə,
Burax məni gözəl qız, öz elimə gedəm mən!

Lənət şairliyimə, şerimə, həvəsimə,
Hardasan, ay nazlı yurd, səs ver mənim səsimə!

---

* *Amac* – məqsəd.
** *Yaslansa* – söykənsə, üz tutsa.

QALX, SEVGİLİM

Qalx, sevgilim, qalx da məni yola vur,
Gec gəlinsə yurd başına çökəcək…
Mən artıq gözləməm gün doğsun deyə,
Kim bu bitməz intizarı çəkəcək?

Qalx ki, yollar uzun, əməl uzaqda,
Bu uğurda ölüm də var, tuzaq da.

Qalx sevgilim, qalx da atımı gəmlə*
Sıcaq bir öpüşlə alnımı nəmlə,
Yetər, gün keçirdim mən bu özləmlə.

Sən aldırma, dağlar keçid verməzsə,
Fırtınalar qopub yolumu kəssə!

Qalx sevgilim, qalx da, quşlar ötüyor,
Gözümdə bir savaş əksi tutuyor,
Qalx ki, zaman keçdi, günüm bitiyor…

El nə deyir, bax bu miskin duruşa,
Qollarında güc yoxmu bir vuruşa?

Qalx sevgilim, ver oxumu, yayımı,
Çək altıma o küheylan** tayımı,
Kim o mənim inkar edən soyumu?

Hansı qüvvət bükən mənim qolumu,
Mən gedərsəm kim kəsəcək yolumu?

---

* *Gəm* – yüyən.
** *Küheylan* – təmiz qanlı (ata işarədir).

Qalx sevgilim, qalx ta məni yola vur.
Düşmənə ki, qəlbimdə çox acı var,
Çökməm dizə, vurulmazsam arxadan
Hələ məndə Bozqurdumun gücü var.

Sən aldırma, dağlar keçid verməzsə,
Fırtınalar qopub yolumu kəssə…

“QIZIL KÖLƏLƏR” DÜNYASINA

Hürr insanlıq hayqırdı: Qəhr olsun zülm, qorxu, kin.
Verdi milyonlar qurban… Bəs yenə bu qorxu nə?
Millətləri qızıl bir oraqla biçmək üçün
Xortlayan barbarlığın əskisindən farkı nə?

Dünya yenə tərsinə dönər, sərxoşmu bilməm,
Qanlı badirələrlə* əylənmək xoşmu bilməm,
Bunca çəkilmiş əmək bihudə, boşmu bilməm,
Müztərib dodaqlarda bu bitməyən şarkı nə?

Harda təhəkküm, zülüm, milyonluq əsir insan,
Harda təqiblər, sürgün, top-tüfəng, ölüm və qan?
Qaldır dəmir pərdəni, hökmünü versin cahan,
Lənət qızıl dünyanın kölələr cənnətinə!

Aç, göstər hər guşəni, hər kəsi var, kəsi yox,
Mən bilirəm ki, orda uçan quşun səsi yox,
Hürriyyətmi deyirsən? Yalan… Onun əksi yox,
Milyonu beş paradır orda gəmigin, ətin…

---

* *Badirə* – gözlənilməz hadisə, dərd, qəm.

MÜQƏDDƏS İXTİLAL*

Qaranlıqda gözlərim dikilmiş üfüqlərə,
Bir fırtına səsi var, buludlar göydə dal-dal
Açmış Doğu bağrını sökəcək şəfəqlərə,
Qop, ey dəli fırtına, rişəni könlümə sal,
İxtilal istəyirəm, müqəddəs bir ixtilal…

Doğan günəşlə qopsun bir axın vəlvələsi,
Görünsün qan köpüklü qasırğanın yeləsi**,
Bitsin əsir türklüyün, bitsin artıq çiləsi,
Nə zəncirli bir Qafqas, nə qan qusan bir Ural,
İxtilal istəyirəm, müqəddəs bir ixtilal…

Sovursun ümmanlara gövdə, bacaq, biləк, baş,
Yerə girsin, Kremlin qalmasın daş üstdə daş,
Hürr insanlıq uğrunda başlasın qətli-savaş,
Vaxt gəlmişdir, ey zaman, bir ölüm şərqisi çal,
İxtilal istəyirəm, müqəddəs bir ixtilal…

---

* *İxtilal* – üsyan, inqilab.

** *Yelə* – yal, uzun saç.

BİR GÜN GƏLƏCƏK

Orda Orta Zamanın vəhşətindən yadigar,
Qaranlıqlar içində qurulmuş bir "Cənnət" var.
Bir cənnət ki, özəyi qanlı bir Kremlin
Milyonla qafa udmuş təməlində yüksəlir.
Ruh alıb Dəli Petro və bir müdhiş İvandan,
Dünyanı yıxıb yaxmaq əməlində yüksəlir…
Kremlin, onu sorun tarixin yaprağına,
O ölüm qalasının nasıl qurulduğunu
Neçə milyonun qanı çilənmiş toprağına,
Neçə milyon günahsız başın vurulduğunu.
Kremlin, o əskidən bəri zülmün qaynağı,
Kremlin, hürriyyətin qəbrini qazan qala,
Kremlin, o indi də qırmızılar oynağı,
Neronların Roması yanında heçdir belə…

Orda qurmuş yuvanı ciftə başlı qartallar,
Orda vəhşi çarların taği – zəfərləri var.
Orda hürr ölkələri saran zəncirin ucu,
Orda qanlı prinslər və knyazların gücü,
Orda Kutuzovların, Nevskilərin yadı,
Orda Suvorovların, Donskoyların adı.
Qanlı dəhlizlərində canlanır Kuzma Minin,
Divarlarda kölgəsi titrər Kropatkinin.
Orda Dəli Petronun hirsi var, əməli var,
Orda sosialistlərin ruslaşan təməli var.
Kremlin, o çarlığın qanlı taxtına yuva,
Kremlin, o bu gün də xırçınlaşan Moskva…
Yox orda hürriyyətin gözlə görünən əksi,
Bəlkə var da, boğulmuş sulu zindanda səsi.
Orda qan ləkəsidir torpaqda qalan izlər,
Orta çağın canlısı ölüm qoxan dəhlizlər.
Orda qorxunc gecələr, qanlı sabahlar orda,
Cəsədlərlə dənizə gömülən ahlar orda.
Orda ani verilən məhkəməsiz fərmanlar
Orda qurşun başların ağrısını dərmanlar,

Orda zəncir səsindən çınlayan ovalar var.
Yayılır ənginlərə orda qırbac səsləri,
Yollarda sürgünlərin tükənən nəfəsləri.
Orda ölüm kampları* ac milyonları bəklər,
Gecələr növbətçisi qan içici köpəklər.
Orda qonar qarğalar hər gün minlərcə leşə,
Bir ölüm dünyasıdır, Sibirya başdan-başa…
Sibirya… O bir məzar hər sürülən yığına,
Tanrı belə peşmandır onu yaratdığına.
Sibirya, o üzləri donla kavuran buçaq,
Atəşli könülləri buzla yaxan bir qucaq.
Ruzgarı ölüm qoxar, günəşi dondurucu,
Uzandıqca uzanır, nə sonu var, nə ucu.
Atılanlar qoynuna "sakitləşir", "uslanır"**,
Orda zehinlər durur, orda fikir paslanır.
Yalnız qollar çalışır, kəskinləşir dırnaqlar,
Buz bağlamış torpağı qazıb, eşir dırnaqlar,
Orda bir təsəllidir gözlərdə gizlənən nəm,
Alovlu bir cənnətlə iştə buzlu cəhənnəm.
Buzlu cəhənnəm, o dün bir çarlığın təməli,
Buzlu cəhənnəm, bu gün bir varlığın təməli.
Varlıq ki, içdiyi qan, yediyi də canlı ət,
Sümüklərin üstündə yüksəlir qızıl cənnət…
Dün orda sakin, yaşıl bir Krım vardı nərdə?
Nerdə qoca Qafqasın bağrında Çeçen yurdu?
Onlar dəva ararkən düşdükləri o dərdə,
Fəqət azğın Moskva qudurduqca qudurdu.
Bir əmr, əvət, yalnız kəskin bir əmr… "Baş"dan,
Bir baş ki, vücud etsə, qəlbi, ciyəri daşdan.
Bir əmr… Krım, Çeçen, Sibiryaya… Bu qadar!
Yüz illərlə o yerdə məskən quran yuvalar.
Sovruldu yol üstünə bir ovuc torpaq kimi,
Çoluq-çocuq, gəlin, qız – quru bir yarpaq kimi

---

* *Kamp* – düşərgə.

** *Uslanmaq* – ağıllanmaq (burada istehza ilə işlədilib)

Səpildi Sibiryanın o soyuq sinəsinə,
Səs verdi qırbac səsi ac qurdların səsinə…
Ermək üçün "Zorba şef" qıpqızıl əməlinə,
Milyon daha gömürlü "cənnətin" təməlinə.
Söylə, hansı tarixdə, hansı dövrdə, nerdə,
Görülmüş milyonları aşan sürgün sürüsü?
Hansı qələm tərcüman olmuş bu qanlı dərdə,
Yemyamların içində varmı böylə birisi?
LƏNƏT! HÜRR BİR ALƏMDƏ İNSAN HÜRRİYƏTİNƏ,
MƏLUN BİR QÜVVƏT KİMİ ZƏNCİR VURANA LƏNƏT!!!
Qapılıb bir zümrənin zor güdən niyyətinə,
Müqəddəs diləklərə qarşı durana lənət!!!
Əsrlərin içində iyirmincisidir bu,
Çəkilirmi çarmıxa hür bir dilək, hür duyğu?
Bir "cənnət" ki, saçdığı ölüm, verdiyi qayğı,
Rəngi şəfəqdir, guya, saçdığı qana lənət!!
Yox, yox, bu yol deyildir həyata dad verəcək,
İnsan hürriyyətinə ruh və qanad verəcək.
Bir "cənnət" ki, zülmətin pərdəsini hörəcək,
Onu qaranlıqlarda öylə qurana lənət!!
Versəydi Tanrım mənə keçmişdən bir anımı,
Yaxaraq bir məşələ, qurardım bir hür ocaq,
Götürüb insanlıqdan ruh alan fərmanımı
Salardım dörd bir yana, şənlənərdi hər bucaq…
Qazardım könüllərdə yalnız bir tək ideal:
"İnsanlara hürriyyət, millətlərə istiqlal!"
Hardasan, ey xilaskar Bozqurdum, çıx yoluma,
Hardasan, ey Teymurun qüdrəti, gəl qoluma,
Şimşəklər kimi bir an mən çaxmaq istiyorum.
Hürr bir dünya, hürr bir din, hürr bir Tanrı, hürr bir yol,
Hürr bir həyat, hürr vicdan, hürr bir qafa, hürr bir qol,
Hürr bir şeir, hürr bir eşq, hürr bir məskən, hürr əmək.
İnsan oğlunun əsil hürr cənnəti bu demək!
İndi, böylə bir aləm, böylə bir dünya deyə,
Hər kirli bir bucağa, bir su kimi axmalı.
Küllərini ruzgara vermək üçün hədiyyə
Hürr insanlıq uğrunda Kremli yaxmalı.

ARAZLA DƏRDLƏŞMƏ

Oğlum Araz üçün

Gəlin kimi qurulursan,
Axıb, axıb yorulursan.
Göy Xəzərdə durulursan
Durna gözlüm, daşqın Araz,
Nədir sənin aşqın Araz?..

İlan kimi axışın var,
Ceyran kimi baxışın var,
İncə sözdən çaxışın var,
Dilbər üzlüm, tellim Araz,
Mənim ana ellim Araz.

Min göllərin qaynağından,
Axıb yaqut oynağından,
Öpüb yarın yanağından,
Dərdli-dərdli axan Araz,
Dost qəlbini yaxan Araz.

Ərzurumun ovasından,
Şahinlərin yuvasından,
Axıb türkün qovasından,
Könlüm kimi coşan Araz,
Get Quzğuna boşan, Araz.

Bizim bozkırdan keçərkən,
Birləşib Kürdən keçərkən,
Doğduğum yerdən keçərkən,
Gəl ol mənim dilim, Araz,
Sor, necədir Milim, Araz…

Hey axırsan, durduğun yox,
Dost halından sorduğun yox,
Yardan xəbər verdiyin yox,
Qəlbin daşdan sərtmi, Araz?
Bu səndə bir dərdmi, Araz?..

Sonra nədən döndü xoyun,
Dövran sənə qurdu oyun,
Əydin o yağıya boyun,
Əski eşqin soldu Araz,
Verdiyin söz noldu, Araz?..

Fırtınalı, boralısan,
Əski dərddən yaralısan,
Soran olsa haralısan,
Söylə türkdür soyum, Araz,
Sənə olmaz doyum, Araz…

QAFQAZ DAĞLARINA

Ülküdaşım leylaya

Qanadım yox uçub gəlsəm yaxana,
Sinəndəki şahinlərə eş olsam.
Ya da məğrur bir qartalın qonduğu
Köksündə bir əsirdidə daş olsun…

Göy bir bulud olub səndə gərilsəm,
Torpaq olub ayağına sərilsəm,
Bir gül olub sənin üçün dərilsəm,
Ya ovçunun şikarı bir quş olsam…

Baxıb dursam uzaq-uzaq izlərə
Qulaq versəm səni anan sözlərə,
Həsrətinlə buludlanan gözlərə,
Səndən axan bir damlacıq yaş olsam…

MƏN KİMƏM?

Bir zamanlar Altaylardan enib yaşıl düzlərə,
Asiyanın göbəyində atəş yaxan mənmiyəm?
Göy xaqanından salam gətirib dənizlərə,
Batıya coşğun bir sel kimi axan mənmiyəm?

Mənmiyəm qırbaclayan qərbin üfüqlərini?
Harda qırbacım mənim, göstər mana yerini?
Mən kiməm, kimlərdənəm, harda mənim el-obam?
Bu doğrumu, deyirlər Oğuzmuş igid babam,
Sarılmış oymaqlara vermək üçün bir nizam.
Minərək şimşəklərə göydə çıxan mənmiyəm?
Anlat mana Mete kim, Cebe kim, Sabutay kim,
Çingiz, Teymur varmıymış, Gurşad kim, Cığatay kim?
Söylə, mənmiyəm quran ilk birlik əsasını,
Söylə, mənmiyəm yapan türkün tək əsasını.
Mənmiyəm şimdi tutan tariximin yasını?
Şimdi həsrətlə böylə dünə baxan mənmiyəm?

Mənmiyəm ölü, durğun bir dəniz kimi böylə,
Söylə, ey Bozqurdların yaşıl diyarı, söylə!

ŞİKAYƏT

Mənim də dərdim var, hakim, dinlə sən,
Ömür kitabımı qaralanmış yaz.
Keçdi otuz səkkiz ilim heç oldu,
Qəlbimi yüz yerdən paralanmış, yaz.

Yaz, dostları sağır, dövranı sərxoş,
Yaz, könlündə çarpan əməlləri boş,
Sorma nerdən gəlmiş, nerdə vurulmuş,
Dağdan-dağa çarpmış, yaralanmış, yaz.

Burda bahar, qış bir, tikanla bir gül,
Uğursuz bayquşdan fərqsizdir bülbül.
Bir zaman dağlara hökm edən könül
İndi bir əkməgə kiralanmış*, yaz.

Yaz, hakim! Nə yazsan, məncə, boş qeyri,
Qırıq bir qanadın yox mənə xeyri,
Yaz! Bir şahin düşmüş Qafından ayrı,
Harda doğmuş, indii haralanmış, yaz.

---

* *Əkməgə kiralanmış* – Bir parça çörəyə verilmiş, təslim edilmiş.

GÖZƏL YURD

Qafqas… O gözəl yurd, o müəbbəd* vətənimdir,
Mən hürr olaraq doğdum o zümrüd yaxasında.
Dağlar beşiyim, geydiyi qarlar kəfənimdir,
İllərlə, əsrlərlə sürünsəm də yasında,
Ən sonda o, mütləq ki, mənimdir, o mənimdir!

Qafqas… O yaşıl yurd, o müəbbəd vətənimdir…
Qafqas… Onu mən görmədən ölsəm, ona dair
Qəbrimdə yazılsın iki misra bu kitabə:
"Aşiqdi gözəl yurduna qürbətdə də şair,
Xəyyam necə aşiqdisə, gül rəngli şərabə…"

---

* *Müəbbəd* – əbədi.

KÜSDÜYÜM BAHAR

Yenə gəldi könlümün küsdüyü bui lk bahar,
Yenə açdı, şerimə ruh verməyən çiçəklər…
Eşqi baharda doğmuş və baharda solan bir
Şair uğursuz gələn bu bahardan nə bəklər?

Burax, ellər sevinsin, bu gəlişdən mənə nə,
Ömrü qış kəsilən bir aşiq ondan nə anlar.
Yad bir cənnət nə verir öz dərdiylə yanana,
Qəlbimin təsəllisi fırtınalar, boranlar.

Mən anlamam çiçəkdən, yaşıllıqdan, bahardan,
Yetər ki, üfüqi sarsın bir şimşəgin çaxısı.
Mən uzaq yaşadıqca o doğulduğum diyardan,
İlk bahar sənin olsun, ver mənə qarlı qışı.

On səkkiz il əvvəldi, nisan* iyirmi yeddi,
Gülərkən taleyimin döndü baharı qışa.
On səkkiz ildən bəri qəlb o günə inlədi,
On səkkiz ildir həsrət qaldığım o doğuşa.

Mən necə köksümdə yer verəyim bir yad gülə,
Bax, hala qan sızıyor qəlbimin yarasından…
Ölürsəm, qəbrim üstə gəlirsə bir yad belə
Anlatsın Odlu Yurdun Küründən, Arasından.

1938, Elazığ

---

* *Nisan* – aprel (şair 1920-ci ilin 27 aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna işarə edir).

MOSKVA

Orda hürr ölkələri saran zəncirin ucu,
Orda puç Neronların ölüm, qan yayan gücü.
Aldanıb tuzağına düşən hər diyar bilir,
Orağı insan biçər, çəkici öldürücü.

Kremlin… onu sorun tarixin yarpağına,
Qaç milyon insan qanı çilənmiş torpağına?
İçdikcə qan istiyor, içdikcə quduzlanır
Diqqət! Dörd bir tərəfi hörülü insan ağına*.

Orda Dəli Petronun** hirsi var, əməli var,
Orda sosialistliyin ruslaşan təməli var.
Nerdə bir canavarlıq, bir cinayət çıxarsa,
Orda barbar, kommunist Moskvanın əli var.

Moskva, bir cənnət o sərsəri bir yığına,
Korlar ancaq o qızıl məzhəbaya*** sığına
Saçdığı vəhşətlərin qurbanıdır bu kürə,
Tanrı belə peşmandır onu yaratdığına…

---

* *Ağına* – toruna.
** *Dəli Petro* – I Pyotr.
*** *Məzhəba* – sallaqxana.

ALLAH NAMİNƏ

Roma papasına

Ey qəlbi Tanrısının eşqiylə çarpan papas,
Bu tanrısız şairi dinləməzmisən bir az?
Dün teleqraf telləri xəbər verdi dərindən
Bu imansız ellərə küsüb darıldığını,
Kin püskürən gizli bir hərbə sarıldığını…

O doğrudur, biz atdıq tanrıları yerindən,
Bizdə Allah naminə kirli bir şey qalmadı.
Məbədlərdən silindi köhnə allahın adı,
O məbədlər ki, orda bir zamanlar şahların
Fironların naminə rəsmi keçid düzüldü.

O məbədlər ki, orda yerdəki allahların
Bir əmrilə minlərcə insan qanı süzüldü.
Orda ki, sənin kimi papasların dizinə
Yüzlərlə bakirələr göz yaşları tökürlər.
Müqəddəs mehrabların qan çilənmiş üzünə,
Allahların naminə qızlar dizə çökürlər.

Orda ki, bir zamanlar Allahın oğlu İsa
"Müqəddəs" Məryəmlərin çəkərdi keşiyini.
Papasların belindən gələn o bir çocuqlar
Göz açınca çöllərdə görərdi beşiyini.

O məbədlər ki, indi mehrabları boş qalmış,
Allahların yerində toz-torpaq və daş qalmış.
O məbədlər ki, artıq kimsə çalmaz zəngini,
Biz onların büsbütün dəyişdirib rəngini
Qırmızı fırçalarla boyamışıq qapısın.

Ölkədə çoxaldırıq mədəniyyət tapısın.
Fəqət sənin beynində yenə Allah naminə
Dinin qara fitnəsi varlığıyla oynaşır.
Gəl yenidən anlatma bizə Tanrı nə, din nə,
O qəhbəlik dövrünə bizdə nifrət qaynaşır.

Biz hala unutmadıq milyonlarla bəşərin
Böyük Allah naminə tökdüyü al qanları.
Biz hala unutmadıq hər zəncirli ürəyin
Böyük Allah naminə verdiyi qurbanları.

Biz hala unutmadıq iki doğma qardaşın
Din üçün bir-birini doğrayıb çapdığını,
Biz hala unutmadıq bəşərin tarixində,
Atanı öz oğluna bir düşmən yapdığını.

Bəsdir Allah naminə günahsızlar boğuldu,
Bəsdir Allah naminə fahişələr doğuldu.
Yetər sağır göylərin hökmranlığı bitdi.
Getdi artıq allahın, peyğəmbərin də getdi.
Zənnimcə, papam, sənin ömrün də pək az qaldı.
Sən özün vicdanınla, söylə, varmıdır Allah?
Ey Roma qızlarının qoynunda yatan papa…

DÖNÜK QARDAŞ

1944-cü ildə Ana yurda sığınıb, sonra düşmənlərə təslim edilən və ruslar tərəfindən sərhəddə məkinəli tüfənglə biçilib öldürülən 187 azəri qardaşımın əziz ruhuna*

Türk deyincə, özü, sözü mərd olur,
Dost deyincə, ayrılmaz bir fərd olur.
Qardaş deyib dara düşsəm, sığınsam,
Bundan sora bu mana bir dərd olur…
Mən də deyim bu vəfasız dağlara,
Öz qardaşı dönük olan ağlar – a.

Türk … O Altayların dünki ərimi?
Yolunda can qoydum, verdim sərimi.
Düşdügü ağlardan qurtarsın deyə,
Sərdim ayağına doğma yerimi.
Qardaş ərməğanı tökülən qanlar,
Mana mükafatmı gedən qurbanlar?

Mən deyirdim Qayıxandır** soyumuz,
Bir qaynaqdan varlığımız, boyumuz,
Dilim dili, yolum yolu, əməl bir,
Bir bayraqda ulduzumuz, ayımız,
Azəri, türk, türkmən… varmı ayrılıq,
Hardan doğdu bu imansız sayrılıq?

Alnımızın yazısı qaradır, qara,
Qaradan bir yaylıq yolladım yara,
Yol uzun, yar uzaq, yetişməz əllər,

---

* Türkiyə nəzərdə tutulur (Bu fakt 1944-cü ildə Türkiyədə çıxan "Orqun" dərgisindən götürülmüşdür).

** *Qayıxan* – Oğuz boylarından birinin adı.

Türklüyün qaynayan qəlbini sara…
Fələk qıymış bəslənən bu diləgə,
Lənət türkü xəncərləyən biləgə!

Bir suçmu düşmənə köks gərdigim?
Günahmı Türklügə könül verdigim?
Düşmənin açdığı yaradan dərin,
Ana yurdda öz qardaşdam gördügüm.
Səsləsəydim səs çıxardı hər daşdan,
Nə bəklərsən sağırlaşan bir başdan?

Qaçdır* əli qanlı çıxdı oyunda
Nə biləm qəhbəlik varmış soyunda.
Girdigim özyurddan döndərilərkən,
Qanımın axdığı sınır boyunda,
Açan lalələrdən bir çələng hörsəm,
Türklük dünyasına ərməğan versəm…

* *Qaçdır* – neçədir, neçə dəfədir.

QARA DASTAN

Kimsə bilməz Tanrıdağın yasını,
Duman almış Altayların başını.
Uçurmuşdur başdan dövlət quşunu,
Sətvətinə* üz çevirmiş zaman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Dörd bir yana dağılmış türk soyları,
Sönmüş ocaq, köçüb getmiş boyları,
Dərdli-dərdli axar bozkır çayları,
Saxlar içdən gizli ümid, güman hey…
Qoca Türkün düşdüyü hal yaman hey…

Ağ alnına qara yazı yazılmış,
Yaylalarda dügün-dəmək pozulmuş,
Gəlinlərin gur saçları çözülmüş,
Yada qalmış, dilər eldən aman hey…
Qoca Türkün düşdüyü hal yaman hey…

Dağdan-dağa çarpıb getmiş doğanlar,
Qayalara iz buraxmış al qanlar,
Ordulara buyruq verməz ilanlar,
Harda qalmış sədlər yıxan fərman hey?
Qoca Türkün düşdüyü dərd yaman hey…

Xarab olmuş Buxarası, Başkəndi,
Matəm tutmuş Səmərqəndi, Daşkəndi,
Kəndi söylər, tökər gözdən yaş kəndi,
Nə ozan var, nə yazan, nə şaman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

---

* *Sətvət* – qüvvət, qüdrət

Qazan, Başqurd batmış, Kırım sürülmüş,
Mənim babam, gözlü yarım sürülmüş,
Qonum-qonşum, bütün varım sürülmüş,
Bulunurmu Sibiryada iman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Türk elləri bir-birinə yadlanır,
Qazax, Qırğız, Türkmən, Özbək adlanır,
Azəri türk yanır, içdən odlanır,
Ana yurdun içdən halı duman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Orğun çağlar, yatmış ellər ayılmaz,
Tarım çayı doğru yola qoyulmaz,
Hey səslənir Amudərya duyulmaz
Bu dəryada qalmamışdır dərman hey,
Qoca Türkün düşdüyü dərd yaman hey…

Xəzər coşar, xəbər salar Kürünə,
Axar gedər, Kür sürünə-sürünə,
İdil* ağlar, Altun Ordu yedinə,
Aral kəndi varlığından peşman hey…
Qoca Türkün düşdüyü dərd yaman hey…

Azərbaycan dərd içində boğulmuş,
Sevənləri diyar-diyar qovulmuş,
Ağla, şair, ağla, yurdun dağılmış,
Nerdə qopuz, nerdə qırıq kaman hey?..
Nerdə böyük Vətən, nerdə Turan hey?..

---

* *İdil* – Volqa.

İGİDLƏRƏ ÇAĞIRIŞ

Türk dostlarıma

I

Gəlin dostlar, gəlin də bir araya,
Dərman bulun qəlbimdəki yaraya,
Çarə nədir bu yazılan qaraya,
İgidlər, igidlər, daşqın igidlər,
Dərdim başımdan çox aşqın igidlər.

Yaralı bir bülbül, qırıq bir daldan*,
Qoparsa bir fəryad, sən anla haldan
Söküb içimi qurtaran vəbaldan**,
Elim, gülüm, halım yaman igidlər…

Fələk büsatını qurdu quralı,
Ömrüm keçdi fırtınalı, boralı,
Yaralıyam, dostlar, içdən yaralı,
İgidlər, igidlər, canım igidlər,
Qurumuş damarda qanım igidlər.

II

Genə bürünmüş al qana üfüqlər,
Genə qorxu verir mana üfüqlər,
Gebədir*** çətin bir ana üfüqlər,
Bu qorxunc sükutu nədir boğacaq?
Yokxsa bir qanlı günəşmi doğacaq?

İgidlər, qorxum var "yaxın"dan, "dost"dan,
Xain bir zor edər igidi postdan****
İçin ürpəşməzmi o çılğın səsdən,

---

* *Dal* – budaq.
** *Vəbal* – məsuliyyət, əzab.
*** *Gebə* – hamilə.
**** *Post* – ad, san, vəzifə.

Kimdir əcəb yenə bir qan qusacaq,
Omu, yoxsa tariximmi susacaq?

Dostlar, diqqət o dikilən gözlərə,
Kim qanacaq zəhər saçan sözlərə,
Bir ölüm sunmaqda dövran sizlərə,
Sipərmi istərsən, tunc köksün bir dağ,
İnanmaq istərsən, bağrını sök, bax…

III

Aman, dostum, nədən qaşlar çatıldı,
Yoxsa gücüm yabanamı* atıldı?
Təmiz qana bir afyonmu** qatıldı?
Nədən, böylə bu miskincə susduğun?
Nədən, söylə keçmişinə küsdügün.

Bax hirsdən çatlayır qəbrində atan,
Əcəb orda bir skletmi yatan?
Sığınmış o böyük ruha bu Vatan,
Vatan torpaq deyil, damarda qandır,
Ondan qeyri tapacaq yer, yalandır.

Hansı məlun ona uzadacaq əl,
Könüldə çarparkən bu ölməz əməl.
Gəl, ey keçmiş, keçmişdəki şanım, gəl.
Kimdir əcəb yollarımı bağlayan,
Yadınmı içimdə böylə ağlayan.

---

* *Yaban* – çöl.
** *Afyon* – tiryək.

IV

Baxıb uca Qafqaslardan uzağa,
Kim meydan oxurdu rusa, kazağa,
Salıb böyük orduları tuzağa,
Kimdir yapan dörd bucağa axınlar,
Siz söyləyin, siz ey bizə yaxınlar.

O kim, bir vuruşda yıxan hər bürcü,
Önündə diz çökdü erməni, gürcü,
Nər igid qoca bir ordunun harcı*
Söylə, dostum, söylə, bunlar yalanmı?
Bir masaldan xatirəmdə qalanmı?

Harda sənin zirhin**, çəlik quşağın,
Qapında serb, yunan, bolqar uşağın,
Söylə, indi narahatmı döşəyin?
İgidim, igidim, miskin igidim,
Eşqinə, baxtına küsgün igidim.

V

İgidlər… Atılın köhlən atlara,
Sarılın çəlikdən göy qanadlara,
Qoymayın yas çökə bizim yurdlara,
İgidlər, igidlər, yaman igidlər,
Yenə dağlar başı duman igidlər.

Aç, tarix söyləsin yenə bir dastan,
Silinsin o əski qılınclar pasdan,
Yaşıl bozkırların*** sıyrılsın yasdan,
İgidlər, igidlər, mətin igidlər,
Düşmənlə döyüşüm çətin, igidlər…

---

* *Harc* – burada ordunun əsası, orduya bərabər.
** *Zirh* – zireh.
*** *Bozkır* – çöl, düzən.

Silkin, gözüm, silkin mənim qoçağım,
Yenə çiçəklənsin yurdum, ocağım,
Yolunda ilk qurban mən olacağım,
İgidlər, igidlər, şanlı igidlər,
İntiqamı müdhiş, qanlı igidlər.

Ey gözümdə nurum, qəlbimdə qanım,
Tarixdə sözləri dinim, Quranım,
Çarpışdığım torpaq, quflu Turanım…
İgidlər, bu yanıq kəlam, igidlər,
Könlümdən sizlərə salam, igidlər.

GƏNCLƏRƏ ÜMİDİM VAR

Sən istərsən qəlbimi parçala, qır, çeynə, əz,
Mənim yenə bu yolda tükənməz bir canım var!
Sən ölüm ol, başımda hər an dolaş, hər an gəz,
Mənim yenə də bir gün sana bir üsyanım var.

Xoşmu gəldi sana bu, bir an üçün susduğum?
Məni bu yoldan etməz hökmünlə qan qusduğum.
Ey qoynunda dünyaya gəlib ayaq basdığım,
Damarlarımda sana vəqf edilmiş qanım var.

Mənim eşqim, a dostlar, əzəlidir, əzəli,
Kim salacaq könüldən o sevdalı gözəli?
Yox bir qüvvət ki, yaxsın qəlbimdəki əməli,
Mənim ki, o qurtuluş gününə imanım var.

Sən aldırma, içimdən yaralıyam, yaralı,
Burax, keçsin gənc ömrüm fırtınalı, boralı,
Mən bilirəm, sonunda çıxmam üzü qaralı,
Yurdumun gənclərinə ümidim, inamım var!

NƏ OLURDU...

Nə olurdu kor olsaydım, görməsəydim əzəldən,
Görməsəydim o doğduğum dərələri, dağları,
Almasaydım ilhamımı o talesiz gözəldən,
Gözlərimdə qalmasaydı göy Şüvəlan bağları...
Nə olurdu, göz açarkən Quzğunumun dibində
Mən kəndimə* yosunlanmış, dilsiz bir daş bulaydım,
Çomağıyla sürü güdən bir çobanın önündə
Yar yolunda kəsiləcək bir qurbanlıq olaydım...
Mən nə bilim bu qürbətin çəkilməyən nazı var?
Qəmlərini yaza-yaza ömür keçdi, gün bitdi,
Mən dərdi yox edəm derkən, dərdim məni əritdi...

Vurma, könül, vurma, əlbət bu qışın bir yazı var,
Bu qara gün keçicidir, bir gün bitər, inləmə,
Bağçamızda sarı bülbül yenə ötər, inləmə.

---

* *Kəndimə* – özümə.

MÜNDƏRİCAT

Almas İldırımın həyatı, mühiti, şəxsiyyəti (*M.Teymur*) 4

Vətəndə

Mənim incim 14
Arkadaşım Nafiyə... 15
Nəriman 16
Dağlar 17
Dağlara vida 18
Arximed və mən 19
Qorkiyə 19
O mənimdir əzəldən 20
Qafqaz dağlarına 21
Birləşən iki nəhr 22
O gözələ 23
A dağlar 24
Ömrüm xarab oldu hey 25
Nə üçün?.. 26
Durnacıq 27
Durnalar 28
Mayıs gözəlinə 29
Bir el aşığının dedikləri 30
Hindli qızı 32
Hindistanda fırtına 33
Qərbə 36
Parisə xitab 37
Sen çağlar... 38
Şərqə 40
Ananın qızına 41
Müstəmləkə olmuş Şərqə 42
Yarın 43
Əlvida, Bakı! 44
Gicginə 46
“Potyomkin” 57
Səlim xan 58

Sürgündə

Yarımçıq qalmış şeir... 69
Buludlar 70
Acı günlər 71
Mən də ağlamıram 75
Mən 76
Bir səs gəlır uzaqdan 77
Tamara 78
Saraylar yıxılarkən 79
Krımda axşamlar 80
Dağlar səslənirkən 82
Dağlardan xatirələr 84
Ləzgi ellərində 86
Boğulmayan bir səs 87
Mənim türküm 89
Kopet dağları 90
Yaralı olmasaydı 91
Amudərya 92
Böyük şəhidimizə 94
"Pravda Vostoka"ya 95
Hanı? 96
Qərib quşuma 97

Mühacirətdə

İran qızı 98
Bir parça 100
Azərin duası 101
Gölcüklə həsbi-hal 102
Mənim protestom 103
Muradı keçərkən... 105
Batan günəş 107
Qafqaz 108
Susun 109
Qürbətdə 110
Bakı 111
Bir gündə ölən ekizlər 112
Mənmi 114
Əsir Azərbaycanım 115

Bilməm ki... 116
Yurd həsrəti 117
Şərqi 118
Qurbanın ola bilsəm 119
Quzğun üçün 120
Sılaya varacağam 121
Bir gün 122
Neyləyim 123
A dost 124
Ölməkmi, yaşamaqmı? 125
“Derlər orda bir cənnət var” 126
Qürbət məktubları 127
Lənət şairliyimə 129
Qalx, sevgilim 130
“Qızıl kölələr” dünyasına 132
Müqəddəs ixtilal 133
Bir gün gələcək 134
Arazla dərdləşmə 137
Qafqaz dağlarına 139
Mən kiməm? 140
Şikayət 141
Gözəl yurd 142
Küsdüyüm bahar 143
Moskva 144
Allah naminə 145
Dönük qardaş 147
Qara dastan 149
İgidlərə çağırış 151
Gənclərə ümidim var 155

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktorlar: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Alianna Duxanina*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 24.04.2004. Çapa imzalanmışdır 16.11.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 10. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 175.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.